

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET № 133 (7388) / Cümə axşamı, 25 iyul 2019-cu il


# Azərbaycan-Fransa əlaqələri kosmik sənaye sahəsində uğurla inkişaf edir



Bax: səh. 2

Prezident İlham Əliyev Beynəlxalq Astronavtika Federasiyasının prezidentini qəbul edib

Bax: səh. 2



## Rövnəq Abdullayev Avropa Cüdo İttifaqının prezidenti ilə görüşüb

## ABŞ səfiri: Azərbaycanın Əfqanıstanda sülhməramlı əməliyyata töhfəsi yüksək qiymətləndirilir



Bax: səh. 3

Bax: səh. 6

*Leyla Abdullayeva:*

**Avstraliyanın Rayd şəhər Şurasının qəbul etdiyi sənəd hüquqi baxımdan heç bir əhəmiyyət kəsb etmir**



Bax: səh. 7

*Cavid Osmanov:*

**Ötən hər gün xalqın öz Prezidentinə inamını, etimadını daha da artırır**




Bax: səh. 9

MEDİA MƏSULİYYƏTİ:

**Nəyi necə təqdim etmək...**




4 YAP-ın "Yay məktəbi" layihəsi gənclərin inkişaf, dialoq və inteqrasiya platformasıdır

10 BTQ: Ölkələri və insanları birləşdirən iqtisadi, mənəvi körpü

16 Ermənistan ordusunda intihar və cinayət halları artıb



## Akademik Milli Dram Teatrının 100 illik yubileyi qeyd ediləcək

Prezident İlham Əliyev iyulun 24-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, teatrın 100 illik yubileyinə həsr olunmuş tədbirlər planının Azərbaycan Teatr Xadimləri İttifaqının təkliflərini nəzərə almaqla hazırlanıb həyata keçirilməsi Mədəniyyət Nazirliyinə tapşırılıb.

Sərəncamda vurğulanır ki, 2019-cu ilin oktyabr ayında Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının fəaliyyətə başlamasının 100 illiyi tamam olur. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı yarandığı vaxtdan etibarən klassik ənənələrə əsaslanmaqla yanaşı, müasir səhnə mədəniyyətinin zirvələrinə doğru inamla irəliləyərək qısa müddətdə zəngin inkişaf yolu keçib. Milli Dram Teatrı eyni zamanda dünya dramaturji irsində fəxri yer tutan və ümumbəşəri ideallar ifadə edən qiymətli əsərləri səhnələşdirməklə Azərbaycan səhnə sənətinin dünya mədəniyyəti ilə daha da yaxınlaşmasında fəal rol oynayıb. Milli Dram Teatrında Azərbaycan səhnəsinin ən qüvvətli aktyorlar nəsli yetişib. Hazırda öz inkişafının yeni mərhələsinə qədəm qoyan teatr Azərbaycanın özünəməxsus teatr ənənələrinin qorunub saxlanılmasında və dövlətin mədəniyyət siyasətinin gerçəkləşdirilməsində üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməkdədir.

## Prezident gənclərlə iş və idman sahəsində çalışan şəxslərin bir qrupunu təltif edib

İyulun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə gənclərlə iş və idman sahəsində çalışan şəxslərin təltif edilməsi barədə Sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycanda gənclərlə iş sahəsində səmərəli fəaliyyətlərinə, bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə bir qrup şəxs orden və medallara layiq görülüb.

Sərəncama əsasən, Gənclər və İdman naziri Azad Rəhimov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

Bundan başqa, nazir müavinləri İntiqam Babayev və İsmayıl İsmayılov 2-ci dərəcəli "Vətənə xidmətə görə", nazir müavini Fərhad Hacıyev və nazirliyin aparat rəhbəri Rüfət Həsənov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif ediliblər.

Həmçinin 4 nəfər "Tərəqqi", 23 nəfər "Dövlət qulluğunda fərqlənməyə görə" medallarına layiq görülüb.

## Prezident İlham Əliyev Böyük Britaniyanın yeni Baş nazirini təbrik edib

Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının yeni Baş naziri Boris Consonu təbrik edib.

Təbrikdə deyilir:

*"Hörmətli cənab Baş nazir,*

*Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.*

*Biz Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı münasibətlərin inkişafına böyük əhəmiyyət veririk. Bu mənada qarşılıqlı səmərəli əməkdaşlığımız məmnunluq doğurur.*

*Neft-qaz hasilatı və nəqli sahəsindəki əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim. Enerji sektorunda uzun illərdən bəri müvəffəqiyyətlə davam edən birgə fəaliyyətimiz, gerçəkləşdirdiyimiz irimiqyaslı transmilli layihələr qlobal enerji təhlükəsizliyinin təmin edilməsinə böyük töhfədir.*

*İnanıram ki, qarşılıqlı maraqlarımıza uyğun olaraq Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı münasibətlərin inkişafı istiqamətində Sizinlə birgə səylər göstərəcəyik.*

*Sizə ən xoş arzularımı yetirir, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm".*

# Azərbaycan-Fransa əlaqələri kosmik sənaye sahəsində uğurla inkişaf edir

### Prezident İlham Əliyev Beynəlxalq Astronavtika Federasiyasının prezidentini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 24-də Beynəlxalq Astronavtika Federasiyasının prezidenti, Fransa Kosmik Agentliyinin rəhbəri Jan-İv Lö Qalı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanda kosmik sənayenin inkişafında əldə edilən uğurlar qeyd olundu, yüksək texnologiyaların, o cümlədən kosmik sənayenin ölkəmizdə prioritet sahələrdən biri olduğu bildirildi, Azərbaycanın artıq üçüncü süni peykinin orbitə buraxılması mühüm hadisə kimi dəyərləndirildi və ölkəmizin dünya kosmik ailəsinin üzvü olmasının əhəmiyyəti vurğulandı.

Söhbət zamanı Azərbaycanla Fransa arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən kosmik sənaye sahəsində uğurla inkişaf etdiyi bildirildi, eyni zamanda, ölkəmizin Beynəlxalq Astronavtika Federasiyası ilə də əməkdaşlığının genişləndirilməsindən məmnunluq ifadə olundu.

Görüşdə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Rövnəq Abdullayev Avropa Cüdo İttifaqının prezidenti ilə görüşüb



Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayev Bakıda səfərdə olan Avropa Cüdo İttifaqının prezidenti Sergey Soleveyçiklə görüşüb.

APA-nın məlumatına görə, Rövnəq Abdullayev Azərbaycan prezidenti İlham Əliyevin ölkə idmanının inkişafına göstərdiyi böyük diqqət və qayğıdan danışıb, idmançılarımızın Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında qazandıqları yüksək nailiyyətlərdən söhbət açıb.

Ölkəmizdə cüdo idman növünün də zəngin ənənələrə malik olduğunu qeyd edən Abdullayev son vaxtlar idmançılarımızın mötəbər yarışlardakı uğurlarını vurğulayıb. O, Azərbaycan cüdoçularının dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq turnirlərdə medallar qazandığını diqqətə çatdırıb. Hər il yeniyetmələr, gənclər və böyüklər arasında respublika çempionatlarının da yüksək səviyyədə keçirildiyini söyləyən federasiya prezidenti bu yarışlarda rekord sayda cüdoçuların mübarizə apardığını qeyd edib.

*ABŞ səfiri:*

# Azərbaycanın Əfqanıstanda sülhməramlı əməliyyata töhfəsi yüksək qiymətləndirilir



"Azərbaycanla ABŞ arasında çox yaxşı münasibətlər var və biz bunun inkişafında maraqlıyıq".

Nazirlər Kabinetinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, bunu Baş Nazirin müavini Əli Əhmədov ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenberqer ilə keçirdiyi görüşdə bildirib.

Ə.Əhmədov deyib ki, bir çox məsələlərdə hər iki ölkənin maraqları üst-üstə düşür və bu da əməkdaşlıq üçün əlavə imkanlar yaradır. Baş Nazirin müavini qeyd edib ki, Azərbaycanda bir sıra layihələrin həyata keçirilməsində ABŞ şirkətləri yaxından iştirak edir.

Li Litzenberqer ABŞ-ın Azərbaycanın müstəqilliyini və suverenliyini güclü şəkildə dəstəklədiyini vurğulayıb: "Azərbaycanın regionda və daha geniş aləmdə oynadığı rol, eyni zamanda təhlükəsizlik sahəsində Əfqanıstanda həyata keçirilən sülhməramlı əməliyyata töhfəsi yüksək qiymətləndirilir. Bu istiqamətdə beynəlxalq səylər və etibarlı tərəfdaşlıq ABŞ hökuməti tərəfindən müsbət dəyərləndirilir".

Görüşdə Azərbaycan ilə ABŞ arasında strateji əməkdaşlıq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etməsindən məmnunluq ifadə olunub.

# "DOST mərkəzləri müasir Azərbaycanın siması kimi"

## BU MÖVZUDA FƏRDİ JURNALİST YAZILARI MÜSABİQƏSİ ELAN OLUNUB

DOST DAYANIQLI VƏ OPERATİV SOSİAL TƏMİNAT AGENTLİYİ

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu KİVDF www.kivdf.gov.az

**Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu DOST (Dayanıqlı və Operativ Sosial Təminat) konsepsiyası əsasında innovativ yeniliklərin tətbiqi ilə dövlət sosial xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərin əhaliyə vahid standartlar əsasında "bir pəncərə"dən, tam şəffaf və operativ, vətəndaş rahatlığı və məmnunluğu prinsipi ilə təşkili sahəsində aparılan islahatlarla əlaqədar birgə fərdi jurnalist yazıları müsabiqəsi elan edir.**

Bu barədə AZƏRTAC-a Fonddan məlumat verilib.

"DOST mərkəzləri müasir Azərbaycanın siması kimi" mövzusunda keçirilən müsabiqə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial islahatlar proqramının nailiyyətlərindən biri kimi dövlət sosial xidmətlərinin təşkilində DOST layihəsi əsasında innovativ yenilikləri, optimal və effektiv idarəçiliyi ehtiva edən yeni keyfiyyət mərhələsinə keçidin təmin olunması və sosial sahə üzrə genişmiqyaslı xidmətlərin əhaliyə vahid standartlar əsasında "bir pəncərə"dən, tam şəffaf, operativ, vətəndaş rahatlığı və məmnunluğu prinsipi ilə təşkilində layihənin mühüm üstünlükləri barədə geniş ictimai məlumatlandırmada peşəkar jurnalist əməyinin stimullaşdırılması məqsədi daşıyır. Müsabiqə elan olunan gündək ən azı bir il müddətində kütləvi informasiya vasitələrində (qəzet, jurnal, informasiya agentliyi və rəsmi qeydiyyatdan keçmiş internet media resurslarında) fasiləsiz çalışan şəxslər müsabiqədə iştirak edə bilərlər.

Müsabiqədə I yer üçün 1 nəfər - 1000 manat, II yer üçün 2 nəfər - 800 manat, III yer üçün 3 nəfər - 500 manat mükafat təqdim olunacaq. Bundan əlavə, 5 yazı müəllifinə (hər biri 200 manat) həvəsləndirici mükafatların verilməsi nəzərdə tutulub. Qaliblər, həmçinin Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun xüsusi diplomu ilə təltif olunacaqlar.

Yazıların qəbulu 2019-cu il 24 iyul tarixində başlayır və 2019-cu il 27 sentyabr tarixində başa çatır.

# "AZƏRİQAZ" İŞİNDƏ YENİLİK EDİR



Yeni smart kartların verilməsi, bloklanmış kartların və yaxud abonentlər tərəfindən səhvən söndürülmüş sayğacların (OFF rejimi) yenidən aktiv olunması. Kütləvi sayğac dəyişiklikindən sonra ən çox ünvanlanan bu müraciətlərə abonentlər bu gündən etibarən daha bir xidmət sahəsində cavab tapa biləcəklər.

İyulun 25-dən başlamaqla Bakıxanov qəsəbəsi Nazim İsmayılov küçəsi 104 ünvanında Sabunçu Texniki İstismar Xidmətində yuxarıda qeyd edilən məsələlərlə bağlı xidmətlərin göstərilməsi təmin olunacaq.

# Müdafiə naziri cəbhəboyu zonada yeni hərbi obyektin açılışında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən Müdafiə naziri, ?general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti hərbi hissələri yoxlamaq məqsədilə cəbhəboyu zonada səfərdədir.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə nazirliyin rəhbər heyəti Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə gül dəstələri qoyub, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsini hörmət və ehtiramla yad ediblər.

Müdafiə naziri bölmələrdən birinin şəxsi heyəti üçün inşa edilən yeni yaşayış kompleksinin açılışında iştirak edib. Nazirə məruzə olunub ki, yaşayış kompleksi qaz, su, işıq və lazımi kommunikasiya xətləri, həmçinin yeni mebel dəstləri ilə təchiz edilib.

Müdafiə Nazirliyinin rəhbərliyi hərbi hissənin ərazisində yerləşən əsgər yataqxanası, tibb məntəqəsi, döyüş texnikası üçün saxlanc, avtopark, silah otağı, ideoloji otaq, məişət otağı, yeməkxana, hamam, əşya anbarı və digər xidməti otaqlara baxış keçirdikdən sonra şəxsi heyətlə birlikdə nahar edib.

Sonra Müdafiə naziri qoşunların təmas xəttinə yaxın kəndlərdən birində yaşayan, Aprel döyüşləri zamanı şəhid olmuş Orxan Həmidovun ailəsini ziyarət edib. Görüşdə şəhid ailələrinə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışılıb, Azərbaycanın Prezidenti və Birinci vitse-prezidentinin bu istiqamətdə atdığı bütün addımlara və qəbul edilən qərarlara görə dərin minnətdarlıq ifadə olunub.

Şəhidin anası Tamilla xanım ailəsinə dövlət başçısı tərəfindən göstərilən diqqətə və Müdafiə naziri adından təqdim edilən hədiyyələrə görə təşəkkür edərək bildirib ki, hərbi qulluqçuların köməyi ilə oğlunun ailəsinin yaşadığı həyətə su çəkilərək "Orxan bulağı" inşa edilib.

Çay süfrəsi ətrafında davam edən söhbət zamanı şəhidin ailə üzvləri Azərbaycan Ordusunun qüdrətinə və qələbəsinə inamın böyük olduğunu qeyd edərək qoşunların təmas xəttinə yaxın ərazilərdə yerləşən yaşayış məntəqələrinin bölmələrimiz tərəfindən etibarlı müdafiə olunduğunu və əhalinin hərbçilərimizə yüksək etimad göstərdiyini bildiriblər.

Cəbhəboyu zonaya səfər çərçivəsində Müdafiə Nazirliyi rəhbərliyinin keçirdiyi görüşlərdə Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Ali Alıyev və Milli Məclisin deputatı Aqil Abbas da iştirak ediblər.

# "Bakcell" şəbəkəsinin əhatə dairəsi sürətlə artmaqda davam edir

Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkətinin yüksək keyfiyyətli mobil şəbəkəsinin əhatə dairəsi sürətlə artır.

Belə ki, istifadəçilər üçün ən yüksək keyfiyyətin təmin olunması istiqamətində aparılan işlərin davamı olaraq təkcə 2019-cu il ərzində "Bakcell" tərəfindən ölkə ərazisində 700-ə yaxın yeni baza stansiya quraşdırılıb.

Xatırladaq ki, 2300-dən artıq 4G texnologiyalı baza stansiyası sayəsində "Bakcell" şirkəti əhatə dairəsi və şəbəkə tutumu baxımından ölkədə ən böyük 4G şəbəkəsinə malikdir. Bunun sayəsində "Bakcell" şirkəti ölkənin bütün bölgə mərkəzlərində yüksək keyfiyyətli və ən sürətli 4G İnternet xidmətlərini təqdim edir. Bakı, Abşeron yarımadası və Azərbaycanın bütün şəhər və rayonlarında (Naxçıvan Muxtar Respublikası və işğal olunmuş ərazilər istisna olmaqla) yaşayan "Bakcell" abunəçiləri şirkətin təqdim etdikləri yüksək sürətli mobil İnternet xidmətlərindən yararlanmaq imkanına malikdirlər. Hazırda "Bakcell"in 4G şəbəkəsi əhalinin 78%, ölkə ərazisinin isə 52%-ni əhatə edir.




"Bakcell"in təmin etdiyi keyfiyyət və ən yüksək mobil internet sürətinə hətta beynəlxalq səviyyədə belə yüksək qiymət verilir. Belə ki, 2018-ci ildə "Bakcell" "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Bu mükafat şirkətə "Speedtest" xidmətinə görə bütün dünyada tanınan "Ookla" şirkəti tərəfindən təqdim edilib. 2017-ci ildə isə mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən "Bakcell" şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb ("Best in Test").

Həmçinin qeyd edək ki, 2019-cu il ərzində "Bakcell" şirkəti ölkəmizdə keçirilmiş Novruz festivalı, Formula 1 Azərbaycan Qran Prisi, UEFA Avropa liqasının final oyunu, Avropa Gənclər Yay Olimpiya Festivalı və digər əhəmiyyətli tədbirlər zamanı ən yüksək keyfiyyətli rabitəni təmin edib.

Müştərilərə göstərilən xidmət keyfiyyətinin daha da təkmilləşdirilməsi məqsədilə "Bakcell" bundan sonra da ölkənin ən üstün mobil şəbəkəsinin genişləndirilməsi və modernizasiyasına yönəlmiş iri-miqyaslı tədbirləri davam etdirəcək.

# YAP-ın “Yay məktəbi” layihəsi gənclərin inkişaf, dialoq və inteqrasiya platformasıdır

**Yeni Azərbaycan Partiyasının təşkil etdiyi “Gənc liderlər üçün yay məktəbləri”nin II turu başa çatdı. 2007-ci ildən başlayan “Yay məktəbi” layihəsinin builki mərhələsində də partiyanın fəal üzvü olan 300-dən çox gənc iştirak etdi.**




“Yay məktəbi”ndə iştirak edən gənclər həm Bakı şəhərini, həm də bölgələri təmsil edirdilər. Hər il olduğu kimi, bu il də “Yay məktəbi” layihəsi ölkəmizin gözəl guşələrində - Oğuzda və Lerikdə təşkil olundu. Layihə çərçivəsində gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi üçün ekskursiyalar təşkil olundu, müxtəlif məsələlərlə bağlı təlimlər, debatlar, intellektual və əyləncəli oyunlar reallaşdırıldı və idman yarışları təşkil edildi. “Yay məktəbi” çərçivəsində YAP-ı təmsil edən deputatlar, partiyanın Siyasi Şurasının üzvləri də gənclərlə birgə layihə iştirakçısı oldular. Onlar müxtəlif mövzular ətrafında gənclərlə fikirlərini bölüşdülər, müxtəlif suallara cavab verdilər.

Bununla da YAP bir daha Azərbaycan gəncliyinə olan münasibətini, diqqətini ortaya qoymuş oldu. Əlbəttə ki, iqtidar partiyası olaraq YAP-ın gənclərin asudə vaxtının səmərəli təşkili və onların bacarıqlarının reallaşdırılması istiqamətində həyata keçirdiyi layihələr birbaşa dövlətin cəmiyyətimizin sözügedən aktiv sosial təbəqəsinə olan qayğısından irəli gəlir. Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin gənclərə olan münasibətini isə bu gün hər bir azərbaycanlı əyani şəkildə görür.

Sirr deyil ki, Azərbaycanda gənclər siyasəti 1993-cü ildən - ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişindən sonra formalaşıb. O vaxta qədər - 1991-1992-ci illərdə Azərbaycan gəncliyi siyasi hakimiyyəti istismar edən ayrı-ayrı kriminal qruplaşmaların əlində alətə çevrilmişdi. Onlar əsasən cinayət və digər qanunazidd fəaliyyətlərə təhrik edilir, hətta düşmənlərlə sövdələşmələrə göndərilirdi.

Ulu Öndərin siyasi hakimiyyətə gəlişindən sonra Azərbaycan gənclərinə xüsusi diqqət ayrıldı və hətta bu sahədə siyasi kurs da hazırlandı. Gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etmiş ümummilli lider Heydər Əliyev bu məqsədlə 1994-cü il iyulun 26-da Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması haqqında Fərman verdi. 1995-ci ildə isə Heydər Əliyev Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsünü irəli sürdü və 2 fevral 1996-cı il tarixində müstəqil Azərbaycan gənclərinin ilk Forumu keçirildi. 1 fevral 1997-ci il tarixində Forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən ulu öndər Heydər Əliyev “2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında” Sərəncam imzaladı. Həmin vaxtdan etibarən ənənəvi olaraq hər il 2 fevral günü Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur.

Ardıcıl olaraq həyata keçirilən işlərin davamı kimi 2 mart 1999-cu il tarixində ulu öndər Heydər Əliyev respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması, dövlət orqanlarının diqqətini gənclərin problemlərinin həllinə yönəltməklə bağlı tövsiyələr verdi. Məhz 1999-cu ildə Ümummilli Lider tərəfindən imzalanan “Dövlət gənclər siyasəti haqqında” Fərman isə bu sahəyə dövlət başçısı səviyyəsində böyük önəm verildiyinin təzahürü kimi qiymətləndirilə bilər. Fərmana müvafiq olaraq “Gənclər siyasəti haqqında” qanun qəbul edildi və 9 aprel 2002-ci il tarixdə Heydər Əliyev tərəfindən imzalandı. Gənclər siyasətinin həyata keçirilməsi əsas cavabdeh dövlət qurumu kimi Gənclər və İdman Nazirliyinə tapşırıldı.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev də gənclər siyasətinə eyni diqqətlə yanaşır. Belə ki, 2005-ci ildə Prezident İlham Əliyev tərəfindən “Azərbaycan Gəncliyi Dövlət Proqramı” (2005-2009-cu illər) imzalandı. Proqrama gənclər arasında hüquq pozuntularının, narkomaniyanın və digər zərərli vərdişlərin profilaktikası, gənclərin sağlamlığının qorunması sahəsində tədbirlərin həyata keçirilməsi, kütləvi bədən tərbiyəsinin və idmanın inkişaf etdirilməsi, ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakı, uşaq və gənclər üzrə təşkilatların formalaşması və inkişafı üçün şəraitin yaradılması kimi vəzifələr daxil edildi. Həmçinin dövlət başçısının Fərmanı ilə Gənclər və İdman Nazirliyi 2006-cı ildə yenidən təşkil edildi, gənclər siyasətinin əsas icra orqanı qarşısında yeni vəzifələr qoyuldu.

Prezident İlham Əliyev tərəfindən 2007-ci il “Gənclər ili” elan edildi. Bu mənada dövlət başçısı Azərbaycan gəncliyinin savadına, bacarığına, gələcəyinə böyük inamla yanaşdığını nümayiş etdirməklə bildirdi ki, hər bir insanın gücü əlbəttə ki, onun biliyindən asılıdır: “Ona görə mən əminəm, gənclərimiz bunu yaxşı başa düşürlər ki, yaxşı bilik almaq, yaxşı savad almaq və istənilən sahədə peşəkar olmaq hər bir gəncin, hər bir insanın həyatda yaxşı yer tutmasına gətirib çıxaracaq”.

3 oktyabr 2008-ci ildə isə Prezident İlham Əliyev Azərbaycan gənclərinin V Forumunda iştirak etdi. O, dövlətin gənclərlə bağlı siyasətinin gələcəyə ünvanlandığını və gənclərin elmdə, təhsildə, mədəniyyətdə və idmanda əldə etdikləri göstəricilərin respublikamızın qüruru olduğunu bildirdi. Bütün söylənilənlərin davamı kimi Prezident İlham Əliyev “Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramını imzaladı, Azərbaycan Gənclər Fondu yaradıldı, gənclər mərkəzləri açıldı, bu sahənin inkişafı ilə əlaqədar bir sıra qanunlar qəbul edildi və qərarlar verildi.

Bunlar bir daha göstərir ki, Azərbaycanda gənclər siyasəti ardıcıl və rasional şəkildə reallaşdırılır. Gənclərin özünün inkişafını, potensiallarının reallaşdırılmasını, bacarığını nümayiş etdirməsini, təhsilini yüksək səviyyədə almasını, onların xaricdə bu prosesi keçməsini təmin edən Azərbaycan dövlətinin məqsədyönlü fəaliyyəti sayəsində hazırda gənclərimiz ictimai-siyasi və sosial-iqtisadi həyatın bütün sahələrində uğurla çalışırlar. Eyni zamanda, Prezident İlham Əliyevin Sədri olduğu YAP-ın daxilində də gənclərə xüsusi diqqət və qayğı göstərilir.

Əlbəttə ki, dövlətin gənclər siyasətinin yaratdığı şərait nəticəsində ortaya çıxan imkanlardan bəhrələnən gənclərin böyük qismi də Yeni Azərbaycan Partiyasının ətrafında birləşib. Bu gün üzvlərinin sayının 250 mindən çox olduğu YAP-ın Gənclər Birliyi Azərbaycanın bütün sahələrində baş verən proseslərdə ön mövqedə durur. İstər ictimai-siyasi, istərsə də sosial-iqtisadi sahələrdə orijinal layihələri ilə sözünü deyən YAP gəncləri dövlətin onlara olan diqqət və qayğısının əyani sübutlarını nümayiş etdirirlər.

YAP-ın layihələrində ölkə əhalisinin ən fəal təbəqəsini təşkil edən gənclərin özünəməxsus yer tutması, eləcə də diqqət və qayğı ilə əhatə olunmuş gənc nəslin partiyamızın qüdrətinin və gücünün əhəmiyyətli dayaqlarından birinə çevrilməsi, ümummilli lider Heydər Əliyevin dediyi kimi, “Gənclər bizim partiyamızın sıralarında xüsusi qayğıya malik olmalıdırlar” fikrinin reallaşmasını təsdiq edir.

Partiyaya gənclərin axını YAP-da gənclik enerjisini artırmaqla gələcək inkişafımıza da ən etibarlı təminat yaradır. Qürurla deyə bilərik ki, YAP-ın gəncləri ümummilli lider Heydər Əliyevin ideyalarını fəal şəkildə təbliğ edir və hazırda Prezident İlham Əliyevin ətrafında sıx birlik nümayiş etdirirlər. Şübhəsiz ki, Azərbaycan gənclərinin YAP-ın sıralarına qoşulmalarının, öz siyasi talelərini bu partiya ilə bağlamalarının da ciddi əsasları var. Partiyamızın sıralarına xüsusilə intellektli, bilik və bacarıqlı, kreativ, müxtəlif sahələrdə nailiyyətlər qazanmış gənclərin qoşulduğunu nəzərə alsaq, bu əsasların hansı amillərə bağlı olduğunu əminliklə söyləmək olar. Bu o deməkdir ki, YAP gənclərə öz bilik və bacarıqlarını nümayiş etdirmək üçün bütün şəraiti yaradır və gənclərimiz bu partiyanın vasitəsilə özlərini cəmiyyətə təqdim edə bilirlər. Bu mənada əminliklə demək olar ki, bu gün YAP nəinki ölkədə, hətta Cənubi Qafqaz regionunda ən böyük gənclər ordusunu birləşdirən yeganə siyasi təşkilatdır.

YAP siyasi partiya olmaqla yanaşı, eyni zamanda, gənclər üçün bir inkişaf məktəbidir. Çünki partiyanın təşkil etdiyi bütün layihələrin əsas fəlsəfəsini gənclərin milli ruhda yetişdirilməsi təşkil edir. Belə layihələrin sırasında da qeyd etdiyimiz kimi, YAP Gənclər Birliyinin təşkil etdiyi “Yay məktəbi”dir.

“Yay məktəbi” zaman keçdikcə gənclərin dialoq və inkişaf platformasına çevrilir. “Yay məktəbi”, eyni zamanda, cəmiyyətimizin avanqard qüvvəsi olan gənclərin kreativ və intellektual bacarıqlarının aşkara çıxarılması, reallaşdırılması və özünüsübut məkanıdır. Bu cür məktəblər gənclər arasında ünsiyyətin yaranmasına, ölkənin ictimai-siyasi, sosial-iqtisadi həyatı ilə bağlı fikirlərin mübadiləsinə şərait yaradır. YAP-ın təşkil etdiyi bu cür məktəblər cəmiyyətimiz üçün yüksək intellekti, kreativliyi və bacarığı olan gənclər yetişdirir. Burada iştirak etmiş hər bir gənc donor təşkilatlarla işləməyi, layihələr yazmağı öyrənir, həmçinin seçki prosesi ilə bağlı mühüm məqamları mənimsəyir və əlbəttə ki, onların potensialı müxtəlif təqdimatlar vasitəsilə reallaşdırılır.

Bu məktəblər hələ uzun müddət əvvəllər formalaşmış və bəzən də gənclər arasında problemlərə səbəb olmuş region və Bakı gəncləri arasındakı sərhədləri də aradan qaldırır. Məhz hər il keçirilən “Yay məktəbi” yüzlərlə gənci bir-birinə dost edir, gənclər öz aralarında təmaslar qururlar, müxtəlif regionlardan olanlar bir-birinin düşüncəsinə və hərəkətlərinə hörmətlə yanaşırlar. Eyni zamanda, gənc nəsil arasında ünsiyyət möhkəmlənir və gənclərin dostluq üzərində qurulmuş ümumrespublika şəbəkəsi formalaşır. “Facebook”, “Twitter” kimi sosial şəbəkələrdə qrupların yaradılması və məktəbdən sonra illərlə formalaşmış münasibətin və ünsiyyətin qorunub saxlanılması söylənilənləri təsdiqləyir. “Yay məktəbi”ndən sonra müxtəlif dinin və mədəniyyətin daşıyıcısı olan region gənclərinin paytaxt gənclərini bölgələrə dəvət etməsi prosesi də qurulan işin nə qədər düzgün olduğunu sübut edir. Bu mənada “Yay məktəbi”ni inteqrasiya və tolerantlıq platforması da adlandıra bilərik.

Bununla yanaşı, “Yay məktəbi”ndə gənclər partiya rəhbərliyi, deputatlar, dövlət nümayəndələri ilə görüşlər keçirir və səmimi atmosferdə baş tutan dialoqlarda onlar dövlət idarəçiliyi haqqında daha dəqiq məlumatlar alırlar. Bütün bunların nəticəsində bir daha vurğulanmalıdır ki, “Yay məktəbi”ndə gənclərin dünyagörüşü genişlənir və hadisələrə, proseslərə baxış bucağı dəyişir. Bu isə təbii ki, həyata yenicə atılan gənclərin inkişafı baxımından onlara bələdçi olacaq və səhv addımlar atmaqdan sığortalayacaq.

Göründüyü kimi, ölkəmizdə bu cür məktəblər təşkil edən yeganə siyasi təşkilat YAP-dır. Bununla partiyamız Azərbaycan gəncliyinin sağlam, vətənpərvər və Vətənə sadiq vətəndaşlar kimi yetişməsinə öz töhfəsini verir. Ona görə də ölkəmizin alternativsiz siyasi qüvvəsi olan YAP uğurlu fəaliyyəti ilə gənclərin güclü dəstəyini qazanıb. Gənclər YAP tərəfindən atılan bu cür addımları həmişə yüksək qiymətləndirib və sözügedən aksiyalarda böyük fəallıq nümayiş etdiriblər. Məhz bütün bunlara görə bir daha əminliklə demək olar ki, bu gün YAP bir tarixi missiyanı reallaşdırır. Elə bir missiyanı ki, bununla Azərbaycan gəncliyi daha intellektli, kreativ və bacarıqlı, siyasi şüur və davranış baxımından fəal vətəndaşlar kimi formalaşacaq. Nəticədə əldə olunmuş intellektual və kreativ dəyərlər dövlətimizin daha da möhkəmləndirilməsinə sərf olunacaq.

**Ramil VƏLİBƏYOV,**
YAP Nizami rayon təşkilatı Gənclər Birliyinin sədr müavini, siyasi elmlər üzrə fəlsəfə doktoru

# Azərbaycan: uğurlu iqtisadi və sosial inkişaf modelinin müəllifi

## ABŞ-IN "THE HERİTAGE FOUNDATİON" ANALİTİK MƏRKƏZİNİN "İQTİSADİ AZADLIQ İNDEKSİ-2019" HESABATI ÖLKƏMİZİN İQTİSADİ UĞURLARININ TƏQDİMATIDIR

**Uğurlarımızın əsasında islahatların zamanın və dövrün tələblərinə uyğun olaraq təkmilləşməsi, gələcəyə hesablanmış strategiyamızın dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə istinadən hazırlanması dayanır. Ölkə Prezidenti İlham Əliyev bu məqamı xüsusi qeyd edir ki, hazırda iqtisadiyyatımızın yeni inkişaf strategiyası üzərində işlərə başlanılıb.**



Bu prosesə qabaqcıl beynəlxalq mütəxəssislərin, alimlərin cəlb edilməsi yeni inkişaf strategiyasının uğurlu nəticələrə yol açmasına hesablanıb. Təbii ki, gələcəyə nikbinliklə baxmağa əsas verən əsas amil bugünkü uğurlarımızdır. Hədəflərə yüksək səviyyədə nail olmaq üçün regionların potensial imkanlarından maksimum istifadə etmək məqsədilə regional inkişaf proqramlarının uğurlu icrası nəticələrdən də aydın görünür. "Növbəti beşillik proqram - Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində bu gün hələ də görə bilmədiyimiz bütün layihələri icra edəcəyik. Bu, möhkəm bir zəmindir. Biz bu zəmin üzərində yeni iqtisadi inkişaf modeli qurmalıyıq və qururuq. Bizdə həm təcrübə, həm də iradə var" söyləyən dövlətimizin başçısı İlham Əliyev həyata keçirilən siyasətin aparıcı beynəlxalq maliyyə qurumları tərəfindən dəstəkləndiyini dəyərləndirmə əmsallarına istinadən diqqətə çatdırır. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və digər mötəbər maliyyə qurumları ölkəmizin iqtisadi inkişaf modelini yüksək dəyərləndirir, ən əsası Azərbaycan ən islahatçı ölkə kimi mövqeyini möhkəmləndirir. Təkcə Dünya Bankının ayrı-ayrı illər üzrə hesabatlarına diqqət yetirsək, görərik ki, Azərbaycanın qərarlaşdığı yerlərdə dəyişikliklər həyata keçirilən sosial-iqtisadi siyasətin uğurlarının davamlılığına, islahatların zamanın tələbinə uyğun təkmilləşdiyinə əsaslanır. Belə ki, əgər Azərbaycan 2017-ci ildə Dünya Bankı tərəfindən hazırlanan "Doing Business 2017" hesabatında 65-ci pillədə qərarlaşmışdısa, 2018-ci ildə 8 pillə yüksələrək 57-ci yeri tutdu. "Doing Business 2019" hesabatında isə Azərbaycan dünyanın 10 islahatçı dövləti siyahısına daxil olundu. 2017-ci illə müqayisədə ölkəmiz 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşdı. Beləliklə, Azərbaycan MDB ölkələri arasında lider mövqedə dayandı.

Bu günlərdə ABŞ-ın tanınmış "The Heritage Foundation" analitik Mərkəzi tərəfindən hazırlanan "İqtisadi Azadlıq İndeksi-2019"da ölkəmizin iqtisadi uğurlarının təqdimatı oldu. Belə ki, Azərbaycan ən böyük irəliləyişə malik ölkə kimi təqdim edildi. Müqayisəli təhlil aparaq. Əgər 5 il bundan əvvəl, yəni 2014-cü ildə ABŞ-ın "The Heritage Foundation" Analitik Mərkəzinin hazırladığı " İqtisadi Azadlıq İndeksi-2014" adlı hesabatda Azərbaycan 186 ölkə arasında 81-ci yeri tutaraq iqtisadi cəhətdən orta azad ölkələr sırasına daxil olmuşdusa, "İqtisadi Azadlıq İndeksi-2018"də 67-ci, bu il isə 180 ölkə arasında 60-cı yerə yüksəlib.

Ölkəmizin bu uğurlara gedən yoluna qısa nəzər salaq. 2016-cı ilin sentyabrında keçirilən ümumxalq səsverməsinə çıxarılan Konstitusiyaya əlavə və dəyişikliklərin bir qismi idarəçilik sistemində təkmilləşməni nəzərdə tutur. Bu prosesdə peşəkar gənclərin fəal iştirakını təmin etmək üçün yaş məhdudiyyətlərinin aradan götürülməsi ictimaiyyət tərəfindən böyük dəstək qazandı. Eyni zamanda, vitse-prezidentlik institutunun yaradılması da bu təkmilləşmə sırasındadır. Dövlətimizin başçısı İlham Əliyev Nazirlər Kabinetinin iclaslarında daim dövlət idarəetmə sisteminin təkmilləşdirilməsinə böyük ehtiyacın olduğunu bildirir: "Hesab edirəm ki, inkişafa mane olan, xüsusilə idarəetmə sahəsində problem yaradan amillər də aradan qaldırılmalıdır. Burada da çox ciddi islahatlara ehtiyac var. Bəzi strukturlar bir-birinin fəaliyyətini təkrarlayır, biz buna da yol verməməliyik, burada optimallaşdırma siyasəti aparılmalıdır və bu sahəyə də diqqət verilməlidir."

Atılan addımlar günümüzün əsas çağırışlarından olan sahibkarlığın inkişafına da geniş yol açır. Həyata keçirdiyi siyasətin önündə yeniləşməni, modernləşməni əsas amil kimi önə çəkən Azərbaycan hər zaman ilklərə imza atan ölkə kimi tanınır və nüfuz qazanır. Azərbaycan brendi kimi dünyaya səs salan "ASAN xidmət", "ABAD", "DOST" layihələri də diqqət mərkəzindədir. Bu layihələr şəffaflığın artırılmasına, əmək, sosial müdafiə və təminat sahələrində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, elektron xidmətlərə keçidin sürətləndirilməsinə, habelə süründürməçilik hallarının qarşısının alınmasına və vətəndaş məmnunluğunun yüksəldilməsinə xidmət edir. Azərbaycanın dünyada yenilikçi ölkə kimi nüfuz qazanmasını təsdiqləyən mühüm hadisələrdən biri kimi ötən il İmişlidə "ASAN Həyat" kompleksinin açılışında robot "Sofiya"nın iştirakını da qeyd edə bilərik. "Bakı bu gün həqiqətən dünyanın özündə yeni texnologiya və innovasiyaların, müasir və qədim memarlıq üslubunun vəhdətini təcəssüm etdirən ən gözəl şəhərlərindən biridir" söyləyən cənab İlham Əliyev bildirmişdir ki, "ASAN" bizim milli brenddir. Bu, bizim nou-haudur. Bu gün Azərbaycanın təkcə təbii ehtiyatlarını və yaxud məhsullarını yox, eyni zamanda, intellektual məhsullarını ixrac etməsi bizi fərəhləndirir: "Biz artıq belə xidməti yaratmaq istəyən bəzi ölkələrlə də işləyirik. Buna görə də "ASAN"ın təkcə Azərbaycanda yox, bütün dünyada parlaq gələcəyi var." "Sofiya" bildirmişdir ki, "ASAN xidmət" dövlət idarəçiliyində innovasiyaların tətbiqi baxımından uğurlu bir nümunədir. "Sofiya" onu da bildirmişdir ki, ölkənizin gənc olmasına baxmayaraq, o, dünya miqyasında böyük layihələr həyata keçirir, yüksək texnologiyaların inkişafına töhfə verir. Bu, çox yüksək qiymətləndirilir.

Qeyd edək ki, bu il bölgələrdə beş "ASAN xidmət" mərkəzinin yaradılması nəzərdə tutulur, ümumilikdə onların sayı 20-yə çatacaq. "ASAN xidmət" mərkəzinin əsas prinsipləri operativlik, şəffaflıq, innovativlikdir. Dövlətimizin başçısı bildirir: "Mənə verilən məlumata görə, Bakı şəhərində də yeni mərkəzlərin tikintisinə ehtiyac var. Çünki "ASAN xidmət"in funksiyalarının həcmi və müraciətlərin sayı artır, bəzi yerlərdə növbələr yaranır. Biz "ASAN xidmət"i məhz ona görə yaratdıq ki, bu, asan olsun, bu xidmət rahat olsun, növbə olmasın, heç bir pozuntu olmasın, şəffaf olsun. Buna nail olmuşuq. "ASAN xidmət"in bəyənmə əmsalı 100 faizə yaxındır. Ancaq nəzərə alsaq ki, funksiya genişlənir və müraciətlərin sayı artır, bəzi yerlərdə növbələr yaranır. Ona görə göstəriş vermişəm ki, - ilkin vəsait də ayrıldı, - Bakı şəhərində əlavə iki "ASAN xidmət" mərkəzi yaradılsın və beləliklə, onların sayı 22-yə çatacaq." Cənab İlham Əliyev "ASAN xidmət"in fəaliyyətini belə dəyərləndirir: "ASAN xidmət" vətəndaş-məmur münasibətlərinə yenilik gətirdi, rüşvətxorluğa qarşı mübarizədə bizə daha da böyük güc verdi. Yeni göstərdi ki, rüşvətxorluqla mübarizə aparmaq və qələbə çalmaq da mümkündür. "ASAN xidmət"in mənası və əhəmiyyəti bundan ibarətdir."

Hər bir layihə özlüyündə inkişaf, tərəqqi deməkdir. Atılan hər addımda vətəndaş amilinə verilən dəyər daha qabarıq şəkildə özünü büruzə verir. Ailə təsərrüfatlarının inkişafına dəstəyi asan şəkildə həyata keçirən "ABAD", hər bir vətəndaşın yaxın dostuna çevrilən "DOST" idarəetmədə şəffaflığın qorunmasını, rəqabətin gücləndirilməsini şərtləndirir. Biznesin sadələşdirilməsi, "bir pəncərə" prinsipinin tətbiqi şəraitində əldə olunan uğurlar və təcrübə beynəlxalq səviyyədə də qiymətləndirilir, öyrənilir və tətbiq olunur. Lazımsız yoxlamaların aparılmasına, yerli icra hakimiyyəti orqanlarının, o cümlədən hüquq mühafizə orqanlarının bəzi hallarda sahibkarlara problem yaratmasına, lisenziyaların sayının həddən artıq çox olmasına və digər məsələlərə hər zaman çıxışlarında diqqət yönəldən cənab İlham Əliyev qeyd olunan istiqamətlərdə atdığı addımları ilə sahibkarlığın inkişafına yaradılan imkanları daha da genişləndirdi. Ölkəmizin bu günlərdə ev sahibliyi etdiyi BMT-nin Dövlət Xidmətləri Forumunda qurumun Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini Liu Cenmin bu fikirlərini xatırlatmaq istərdik: "Azərbaycan innovativ idarəetmə vasitəsilə inklüziv, səmərəli və insanyönümlü İKT əsaslı dövlət xidməti sistemi yaradıb. Beləliklə, sosial xidmətlərin göstərilməsində dövlət qulluqçuları ilə vətəndaşlar arasındakı məsafəni qısaldıb və dövlət qulluqçuları ilə vətəndaşlar arasındakı ünsiyyəti şəffaflaşdırıb. Dövlət bu misilsiz nəticəni xidmətlərin göstərilməsini müasirləşdirməyə bütün hökumət qurumlarının birgə yanaşması, ASAN mərkəzlərin yaradılması və yenilikçi e-hökumət xidmətlərinin tətbiq edilməsi, xidmətin keyfiyyətinin yüksəldilməsi və bu xidmətlərlə vətəndaşların məmnunluğunun artırılması ilə əldə edib."

Azərbaycanın iştirakçısı və təşəbbüsçüsü olduğu enerji layihələrinin uğurlu sonluqla başa çatması yeni-yeni layihələrin icrasını zərurətə çevirir. 2017-ci ildə "Yeni əsrin müqaviləsi"nin imzalanması, 2018-ci ilin mayında Cənub Qaz Dəhlizinin rəsmi açılışı, iyunda TANAP-ın istifadəyə verilməsi Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini daha da möhkəmləndirməklə yanaşı, iqtisadi imkanlarının artmasına geniş yol açdı. Neft-qaz gəlirlərinin səmərəli istifadəsi əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində də davamlı addımları şərtləndirir. Bunun nəticəsidir ki, Azərbaycan özünü dünyaya sosial dövlət kimi təqdim edir.

Ümumiləşdirilmiş şəkildə qeyd etsək, dünyaya yeni iqtisadi və sosial inkişaf modelini təqdim edən, innovasiyalar ölkəsi kimi nüfuz qazanan Azərbaycanın beynəlxalq maliyyə qurumlarının, sorğu mərkəzlərinin hesabatlarında birinciliyi ələ alması son illərdə əldə olunan uğurların təqdimatıdır. Dövlətimizin başçısı İlham Əliyevin daim vurğuladığı kimi, görülən tədbirlər, atılan addımlar hansısa beynəlxalq təşkilata, dövlətə xoş gəlmək deyil, Azərbaycanın uğurlu gələcəyi üçündür.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

# QOŞUNLARIN TƏMAS XƏTTİNDƏ NÖVBƏTİ MONİTORİNQ



Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Mixail Olaru aparacaqlar.

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 25-də Goranboy rayonu ərazisində yerləşən

# Bakı yenidən dünyanın diqqət mərkəzində

**Hələ 2003-cü ildə Bakıda, Heydər Əliyev adına İdman-Konsert Kompleksində təşkil olunan cüdoçuların Avropa çempionatına qitənin 30 ölkəsindən 300-dək cüdoçu qatılanda heç kim təsəvvür edə bilməzdi ki, Azərbaycan bundan sonra da onlarla dünya səviyyəli beynəlxalq turnirə ev sahibliyi edəcək.**






Daha sonra Bakıda 2004-cü ildə bədii gimnastika üzrə Dünya Kuboku, 2005-ci ildə bədii gimnastika üzrə 27-ci Dünya Çempionatı, bir qədər sonra Birinci Avropa Oyunları, Formula 1 yarışları, çoxmillətli, multiidman turniri olan İslam Həmrəyliyi Oyunları, UEFA Avropa Liqasının final oyunu və digər mötəbər tədbirlər uğurla keçirildi. Bu gün isə Bakıda XV Avropa Gənclər Yay Olimpiya Festivalının yüksək səviyyədə keçirilməsi bir daha onu sübut edir ki, ölkəmiz günü-gündən inkişaf edir və istənilən mötəbər yarışları, tədbirləri keçirməyə qadirdir. İnkişaf etmiş ölkələr Azərbaycanda yaradılmış ictimai-siyasi sabitliyə, şəraitə inanır və etibar edir. Dövlət başçısı İlham Əliyevin idmana göstərdiyi xüsusi diqqət və qayğı ölkəmizin beynəlxalq imicinə də çox müsbət təsir edir. Əlbəttə, günü-gündən inkişaf edən iqtisadiyyatımız, müasirləşən şəhər və rayonlarımız, yaradılan yeni infrastruktur, yenidən qurulan idman qurğuları və komplekslər beynəlxalq aləmdə Azərbaycanın reytinqinin yüksəlməsinə gətirib çıxarıb. İndi ölkəmiz böyük tədbirlərin keçirilməsinə ev sahibliyi etmək üçün bir çox inkişaf etmiş ölkələrlə bərabərhüquqlu mübarizə aparır və bir çox hallarda qalib gəlir. Bu, Azərbaycanın inkişafının göstəricisidir.

İyulun 21-də başlayan və bu ayın 27-dək davam edəcək tədbir Olimpiya bayrağı altında keçirilir və Olimpiya ənənələri ilə zəngindir: alovlanan məşəldən başlayaraq idmançı və rəsmilərin and içməsinə qədər. Avropanın bir çox yüksələn idman ulduzları beynəlxalq arenada ilk addımlarını məhz Avropa Gənclər Yay Olimpiya Festivalı zamanı atırlar. Bütün iştirakçılar burada qazandıqları dostluq və təcrübəni özləri ilə həmişəlik evlərinə aparacaqlar, bəziləri üçün isə bu festival Olimpiya zirvəsinə bir yüksəliş olacaq. Avropa Gənclər Yay Olimpiya Festivalı Avropa gənclərini Atletlər kəndində simvolik olaraq birləşdirir. Bu festival idmançıların Olimpiya hadisələrinin ruhunu hiss etməyə və yeni qələbələrə ilhamlanmağa yol açacaq Olimpiya Oyunlarına bir qapıdır.

Paytaxt Bakının 12 idman obyektində yeddi gün davam edəcək mötəbər turnirdə 48 ölkədən 3900 atlet idmanın on növü - idman gimnastikası, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında mübarizəyə qoşulub. İştirakçıların 52 faizi oğlan, 48 faizi isə qızdır. İdmançılar 135 dəst medal uğrunda güclərini sınayırlar. Mükafatçılar üçün ümumilikdə 930 medal hazırlanıb. Medalların 300-ü qızıl, 300-ü gümüş, 330-u isə bürüncdür. Azərbaycan festivala 122 idmançı ilə qatılıb. Heyətdə güləşçilər və yüngül atletlər sayca üstünlük təşkil edirlər. Festival günlərində idman obyektlərində 3500-dən çox könüllü fəaliyyət göstərəcək.

Qeyd edək ki, Azərbaycan Avropa Gənclərinin Olimpiya festivallarında 1993-cü ildən təmsil olunmağa başlayıb. Həmin il Hollandiyanın Valkensvard şəhərindəki festivalda 43 ölkənin idmançıları mübarizə aparıblar. Festivalda Azərbaycan komandası 1 qızıl və 2 gümüş medalla ümumi hesabda 17-ci olub. 1995-ci ildə Böyük Britaniyanın Bat şəhərində keçirilmiş növbəti festivalda cəmi 1 gümüş medal qazanılıb.

Bakıda keçirilən "Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalı təkcə Azərbaycan üçün deyil, bütün Cənubi Qafqaz regionu üçün də mühüm hadisədir. Bu, həm də Azərbaycan üçün növbəti sınaqdır. Çünki Azərbaycan təkcə Avropaya deyil, bütün dünyaya nəyə qadir olduğunu bir daha nümayiş etdirmiş olur.

**Sevinc Azadi,**
***"İki sahil"***

---

*Leyla Abdullayeva:*

## Avstraliyanın Rayd şəhər Şurasının qəbul etdiyi sənəd hüquqi baxımdan heç bir əhəmiyyət kəsb etmir



Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva Avstraliyanın Rayd şəhər Şurasının Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal edilmiş Xankəndi şəhəri ilə "dostluq əlaqələrinin yaradılması" haqqında sənəd qəbul etməsi ilə bağlı KİV-in sualını cavablandırıb.

AZƏRTAC xəbər verir ki, mətbuat katibi deyib: "İlk növbədə qeyd etmək istərdim ki, Rayd Avstraliyanın ən çox erməni əsilli vətəndaşının cəmləşdiyi şəhərdir. Təsadüfi deyil ki, cəmi 2 nəfər tərəfindən qəbul edilmiş sözügedən sənədin layihəsi Rayd şəhər Şurasının məhz erməni əsilli üzvü Sarkis Yedelyan tərəfindən irəli sürülüb və şəhərin meri Cerom Laksal tərəfindən dəstəklənib.

Xatırlatmaq istərdim ki, Avstraliya Federal Hökuməti Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyir.

Avstraliyanın inzibati ərazi vahidlərinin yerli icra hakimiyyəti və ya qanunverici orqanları tərəfindən ermənilərin lobbiçilik səyləri əsasında qəbul olunan bu kimi sənədlərə gəldikdə isə vurğulamaq istərdim ki, belə sənədlər hüquqi nöqteyi-nəzərdən heç bir əhəmiyyət kəsb etmir, yalnız müəyyən dairələrin və ya lobbi qruplarının maraqlarına xidmət edən kağız parçasıdır".

# "Milli mətbuat - milli düşüncə"

**İyulun 24-də Bakıda Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə Milli Mətbuat Gününə həsr olunmuş "Milli mətbuat - milli düşüncə" mövzusunda konfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, konfransda çıxış edən Fondun icraçı direktorunun müavini Rəfi Qurbanov ölkəmizdə fəaliyyət göstərən mətbuat nümayəndələrini peşə bayramı münasibətilə təbrik edib. O bildirib ki, milli-mənəvi dəyərlərimizin qorunması, təbliği və gələcək nəsillərə çatdırılmasında mətbuatımızın rolu danılmazdır. "Əkinçi" qəzetindən başlayan söz və ifadə azadlığı bizə "Füyuzat"la dəyərlərimizə hörməti, "Molla Nəsrəddin"lə sağlam tənqidi öyrətdi. Bu mənada milli mətbuatın yaranması milli kimliyimizin formalaşmasında xüsusi rola malikdir. Söz və ifadə azadlığının tərənnümü olan mətbuat bu gün fundamental dəyərlərin təbliğində yaxından iştirak etməlidir. Bu sahədə dövlətin həyata keçirdiyi siyasətə toxunan R.Qurbanov diqqətə çatdırıb ki, dini, irqi ayrı-seçkiliyi təbliğ edən, nifrəti aşılayan məzmunların qanun çərçivəsində qadağan olunması tarixən çulğalaşan dəyərlərimizin qorunmasına və geniş təbliğinə yönəlib.

Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib ki, 144 yaşlı milli mətbuatımız ötən zaman ərzində böyük inkişaf yolu keçib. Bu gün mətbuata dövlət tərəfindən xüsusi diqqət və qayğının göstərilməsi, eyni zamanda, söz, fikir və özünüifadə azadlığının ən yüksək səviyyədə təsbit edilməsi, mətbuatın maddi-texniki və maliyyə bazasının gücləndirilməsi, media institutunda təmsil olunan şəxslərin səmərəli fəaliyyəti üçün əlverişli şəraitin yaradılması və digər bu kimi amillər milli mətbuatımızın inkişafını şərtləndirən fundamental amillər kimi dəyərləndirilməlidir.

"SƏS" İnformasiya Agentliyinin icraçı direktoru Vəli Vəliyev bildirib ki, milli mətbuatımızın "Əkinçi"dən bu günə qədər keçdiyi yol keşməkeşli və şərəflidir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi kursun məntiqi nəticəsi kimi, bu gün ölkədə azad, demokratik və güclü mətbuat var. Hazırda müstəqil mətbuatın formalaşması və inkişafına xidmət edən siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

"İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib ki, Azərbaycanda müstəqil mətbuatın inkişafından bəhs edərkən ilk olaraq Ulu Öndərin 1998-ci il 6 avqust tarixli "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı ilə mətbuatın üzərindən senzuranın götürülməsi qeyd edilir. Təbii ki, senzuranın mövcudluğu şəraitində mətbuatın müstəqilliyindən danışmaq qeyri-mümkün idi. Bu qətiyyətli addım yeni müstəqil medianın fəaliyyəti üçün geniş imkanlar açdı.

Azərbaycan mətbuatının əsas inkişaf dövrünün ölkənin müstəqilliyinin ilk illərinə təsadüf etdiyini bildirən "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli diqqətə çatdırıb ki, 1990-cı illərin əvvəllərində yeni qəzetlərin nəşri prosesi ilə jurnalistikada keçid mərhələsi başladı. Müstəqillik ideyalarını təbliğ edən, milli oyanış, özünüdərk prosesinin əsas amili olan Azərbaycan mediası bu vaxtdan etibarən yeni inkişaf mərhələsinə qədəm qoydu.

Sonda Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən media nümayəndələri arasında elan olunmuş "Milli mətbuat - milli düşüncə" mövzusunda məqalə müsabiqəsinin qalibləri mükafatlandırılıb.

# *Deputat:* İslahatlar yalnız bu günə deyil, həm də sabaha hesablanıb

**2019-cu ilin birinci yarısında ölkənin ümumi daxili məhsulu əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,4 faiz artaraq 37825,2 milyon manata çatıb. İqtisadiyyatın neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyər 1,3 faiz, qeyri neft-qaz sektorunda isə 3,2 faiz artıb. Görünən odur ki, artım qeyri-neft sektorunun hesabınadır.**



Sevindirici haldır ki, bu ilin birinci yarısında Azərbaycanın xarici ticarət əməliyyatlarının həcmi 16 milyard 994 milyon 659 min ABŞ dolları təşkil edib. Dövlət Gömrük Komitəsinin aylıq hesabatına əsasən, idxal əməliyyatları üzrə 7 milyard 15 milyon 633 min ABŞ dolları, ixrac əməliyyatları üzrə isə 9 milyard 979 milyon 26 min ABŞ dolları ticarət aparılıb və 2 milyard 963 milyon 393 min dollar müsbət saldo yaranıb.

**Milli Məclisin deputatı Azər Badamov "İki sahil" qəzetinə açıqlamasında bildirdi ki,** bu uğurlara son illər ölkəmizdə həyata keçirilən islahatlar sayəsində nail olunub: "Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar və nümayiş etdirdiyi siyasi iradə nəticəsində artıq ölkəmizdə güclü iqtisadiyyat formalaşıb. Son illərdə isə aparılan islahatlar daha da dərinləşib və mahiyyətcə yeni xarakter kəsb edib. Vergi və gömrük sahəsindəki yeniliklər, lisenziyaların verilməsinin və biznesə başlama prosedurlarının sadələşdirilməsi, yoxlamaların aradan qaldırılması, yerli istehsalın və onun ixracının dövlət tərəfindən stimullaşdırılması, "Made in Azerbaijan" brendinin dünyada tanıdılması istiqamətində atılan addımlar və sair buna əyani sübutdur.

Bu mənada iqtisadi göstəricilərin ilin ikinci yarısında da artan xətlə yüksələcəyi gözlənilən idi. Şəxsən mənim də qənaətim belə idi. Yeri gəlmişkən qeyd edim ki, aparılan islahatların müsbət nəticələri dünyanın nüfuzlu beynəlxalq təşkilatları və reytinq agentlikləri tərəfindən də yüksək qiymətləndirilir. Fikrimi faktlarla əsaslandırmaq istərdim. Belə ki, Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan öz mövqeyini 32 pillə yaxşılaşdıraraq 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın islahatçı 10 ölkəsi siyahısına daxil edilib. Bununla da MDB ölkələri arasında lider mövqeyə yüksəlib. Digər tərəfdən, "Azərbaycan 2019 - Avropa İttifaqı Biznes Mühiti Hesabatı"nda Avropa İttifaqı şirkətlərinin 74%-i cari makroiqtisadi vəziyyəti güclü və qənaətbəxş, 90%-i isə makroiqtisadi vəziyyətin perspektivlərini yaxşı və sabit kimi qiymətləndiriblər. Avropa İttifaqının builki "Azərbaycan investisiya məkanı kimi" sorğusunda isə iştirak etmiş şirkətlərin 75%-i "Azərbaycana yenidən investisiya qoyardınızmı" sualına müsbət cavab verib, ölkəmizdəki təhlükəsizliyi, siyasi və sosial sabitliyi yüksək dəyərləndiriblər".

Müsahibimiz, həmçinin qeyd etdi ki, bu ilin yanvar-iyun aylarında Azərbaycandan Avropa İttifaqına üzv ölkələrə 5 milyard 319 milyon 766 min ABŞ dolları dəyərində məhsul ixrac olunub. Dövlət Gömrük Komitəsinin yaydığı məlumata görə, bu göstərici 2018-ci ilin müvafiq dövrünə nisbətən 1 milyard 170 milyon 909 min dollar çoxdur. Altı ayda Avropa İttifaqı ölkələrindən Azərbaycana idxal edilən məhsulun dəyəri isə 1 milyard 162 milyon 292 min dollar olub".

Milli Məclisin deputatı daha sonra vurğuladı ki, iqtisadiyyatda müsbət makroiqtisadi göstəricilər bundan sonra da yüksələn xətlə inkişaf edəcək: "Şübhəsiz, daxili tələbat və yüksək artım potensialına malik ixrac imkanlarımız növbəti illərdə yeni hədəflərə çatmaqda xüsusi rol oynayacaq. Çünki bu islahatlar yalnız bu günə deyil, həm də sabaha hesablanıb. Onu da xatırlatmaq istəyirəm ki, respublika günü münasibətilə keçirilən rəsmi qəbulda Prezident İlham Əliyev Azərbaycanın əldə etdiyi uğurları dəyərləndirərkən bu nailiyyətlərlə kifayətlənməməyi və dayanıqlı inkişafı təmin etmək üçün daha fəal işlər görülməsinin vacibliyini söyləyib".

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

## *Cavid Osmanov:*

# Ötən hər gün xalqın öz Prezidentinə inamını, etimadını daha da artırır

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu ilin əvvəlindən başlayan sosial islahatlarının uğurla davam etdirilməsi Azərbaycan xalqının böyük əksəriyyətinə müsbət təsir göstərməkdədir.**




Prezident İlham Əliyevin vətəndaşların mənafeyinin müdafiəsi, onların problemlərinin həlli istiqamətində müvafiq qurumlara qəti tapşırıqlar verməsi ictimai fikirdə ölkədəki islahatların uğurla davam edəcəyinə inam yaradır.

Milli Məclisin deputatı, YAP Ağdaş rayon təşkilatının sədri Cavid Osmanov İkisahil TV-yə müsahibəsində bildirdi ki, Azərbaycan dövləti qabaqlayıcı tədbirlər həyata keçirməklə makroiqtisadi sabitliyi qoruyub saxlayıb. Dövlətin vətəndaşların həyati tələbatlarının ödənilməsinə göstərdiyi qayğı özünü bilavasitə sosial təminat sistemində büruzə verir. Vətəndaşların sosial ehtiyaclarının dolğun şəkildə ödənilməsinə xidmət edən iqtisadi siyasət ümumən insan amilinin inkişafına təkan verir. Hökumət azad iqtisadi münasibətlərə, rəqabətə, özəl mülkiyyətçiliyə və sahibkarlığın inkişafına zəruri kömək göstərməklə yanaşı, cəmiyyətdə himayəyə, dəstəyə ehtiyacı olan təbəqəni də diqqətdən qaçırmır.

Cavid Osmanov qeyd etdi ki, dövlət başçısının həyata keçirdiyi sosial islahatların əsas istiqamətləri əhalinin məşğulluğunun təmin edilməsi, paralel olaraq sosial müdafiəsi məsələlərində ünvanlılıq prinsipinə üstünlük verilməsi, aztəminatlı ailələrin, əlillərin, ailə başçısını itirənlərin, şəhid ailələrinin və bu qəbildən olan digər şəxslərin pensiya və müavinət təminatının yaxşılaşdırılması, onların həyat səviyyəsinin yüksəldilməsinə şərait yaradılmasından ibarətdir. Qlobal böhran şəraitində daxili istehsalın təşviq edilməsi, sahibkarlara kreditlərin verilməsi, özəl sektorun maraqlarının müdafiəsi respublikanın neft amilindən asılılığını əhəmiyyətli dərəcədə azaldıb. Cavid Osmanov vurğuladı ki, dövlət başçısı seçildikdən sonra hökumət üzvləri ilə keçirdiyi ilk toplantıda xalqa xidməti əsas tələb, vəzifə kimi müəyyənləşdirən cənab İlham Əliyevin irəli sürdüyü bu prinsip daim qüvvədədir. "Xalq prezidenti seçir, prezident də xalqın qarşısında cavab verməlidir. Əgər xalq onun fəaliyyətini dəstəkləyirsə, ona inanırsa, bu, ən böyük mükafatdır". Vətəndaşlarla birbaşa təmaslara üstünlük verən, özünəməxsus təmkin və həssaslıqla onların problemlərini dinləyən, bu problemlərin həlli üçün qəti tapşırıqlar verən cənab İlham Əliyevin bu addımları ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir, xalqın öz Prezidentinə inamını, etimadını daha da artırır. Ən nəhayət, Prezident İlham Əliyevin məmurlara, dövlət rəsmilərinə fəaliyyətlərini vətəndaşların mənafeyinin müdafiəsi, onların problemlərinin həlli istiqamətində qurmaları üçün müvafiq qurumlara qəti tapşırıqlar verməsi ictimai fikirdə ölkədəki islahatların uğurla davam edəcəyinə inam yaradır.

C.Osmanov diqqətə çatdırdı ki, 2025-ci ilədək Azərbaycan qarşısına məqsəd qoyub ki, dünyanın inkişaf etmiş dövlətləri sırasına çıxsın. 2016-cı ildə ölkə Prezidentinin Sərəncamı ilə Azərbaycan Milli İqtisadiyyatının İnkişafı üzrə 11 istiqamət üzrə Strateji Yol Xəritəsi qəbul edilib. Strateji Yol xəritələrində məqsədlərdən biri 2025-ci ildə minimum əməkhaqlarını orta aylıq əməkhaqlarının 60 faizinə çatdırmaqdır. Bu da inkişaf etmiş ölkələrin göstəricilərindən biridir. Bu il də ölkəmizin tarixində dərin sosial islahatlar ili kimi daxil olacaq. Ölkə başçısı bildirdi ki, sosial islahatlar il ərzində davam edəcək. Yenə də əməkhaqlarının, pensiyaların, təqaüdlərin artırılması, daha yüksək gəlirli iş yerlərinin açılması davam edəcək. Keçən il 200 minə yaxın iş yerləri açılıb ki, onların da 120 mini daimidir. Bu il də bu tendensiya davam edəcək. Xüsusilə intellektual əmək tələb edən, intellektual tutumlu iş yerlərinə üstünlük veriləcək. Ötən 16 ildə həyata keçirilən islahatlar göstərdi ki, cənab Prezident vədinə sadiqdir.

***P.S. Müsahibənin video mətnini İkisahil.TV və ikisahil.az saytından izləyə bilərsiniz.***

**Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***

## *"Azərkosmos"un hədəfi:*

# gəlirlər 45 milyon dollara çatmalıdır

**Bu ilin birinci yarısında ən gənc xidmət sahəmiz olan "Azərkosmos" ASC dünyanın 20 ölkəsinə telekommunikasiya və optik peyk xidmətləri təqdim etməklə 21,2 milyon ABŞ dolları məbləğində gəlir əldə edib.**




Şirkətdən verilən məlumatda bildirilir ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 47 faiz çoxdur. İlin sonuna qədər "Azərkosmos"un gəlirinin 45 milyon dollar olacağı proqnozlaşdırılır. Vurğulamaq lazımdır ki, bu şirkət 2018-ci ildə də sanballı nailiyyətlər qazanmışdı.

Hesabat dövründə şirkətin gəlirinin 90 faizi peyk rabitə xidmətlərinin ixracından əldə olunub. Onun xidmətini idxal edən əsas ölkələr ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Malayziya və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ)olub. Ümumiyyətlə, birinci yarım ildə əlavə olaraq 9 ölkədən qəbul edilən yeni müştərilərlə müqavilələr rəsmiləşdirilib. Peyklər vasitəsilə yayımlanan 150-dən çox televiziya və radio kanalının ümumilikdə 20 milyondan çox auditoriyası var. Ancaq vaxt vardı ki, Azərbaycan özü peyk xidmətinə möhtac idi və bu ehtiyacın ödənilməsi üçün başqa ölkələrə müəyyən məbləğdə vəsait verməli olurdu.

Yada salaq ki, Ermənistanın ölkəmizə qarşı irəli sürdüyü ərazi iddiaları və cəlb olunduğumuz münaqişənin başlanğıcında Azərbaycan öz haqlı mövqeyini dünyaya yaymaqda çətinlik çəkirdi. O zaman respublikamız Sovet rejiminin yaratdığı süni və qərəzli informasiya blokadasında boğulurdu. Bundan əlavə, ölkə daxilində radio və televiziya verilişlərinin keyfiyyətli yayımına şərait lazımi səviyyədə deyildi, rabitə sahəsində qüsurlar mövcud idi. Lakin müstəqillik illərində, daha doğrusu 1993-cü ildən sonra Azərbaycanın sürətli və dinamik inkişafı kosmik rabitənin yaradılmasına və inkişafına imkan verdi.

Azərbaycan kosmik fəzaya ilk rabitə peykini buraxmaqla bu sahədə çox mühüm uğura imza atmış oldu. Bundan az sonra ikinci peykimiz də kosmik fəzaya göndərildi. Hazırda peyklərimiz ölkəmizin informasiya yayımı sahəsindəki bütün çətinliklərini aradan qaldırmaqla bərabər, digər xarici ölkələrə də xidmət göstərməklə gəlir gətirir.

"Azerspace-2" peyki bu ilin fevral ayında baş tutan uğurlu biznes startı ilə "Azərkosmos" regional peyk xidmətləri bazarında artıq etibarlı və özünü təsdiq etmiş peyk xidmətləri operatoru mövqeyi qazanıb. Yeni peyk "Azərkosmos"a ABŞ, BƏƏ və Tanzaniyadan olan yeni müştərilərə xidmət göstərmək imkanı yaradıb. Azərbaycan da daxil olmaqla Baltikyanı, Mərkəzi Asiya və Şərqi Avropa regionundan olan 13 ölkənin qurumları "Azersky" - Yer səthinin məsafədən müşahidəsi peykinin təsvirlərindən kənd təsərrüfatı, kartoqrafiya və xəritəçəkmə, ekoloji layihələndirmə, torpaqların təyinatı və monitorinqində istifadə ediblər. Şübhə yoxdur ki, bunun miqyası gələcək illərdə daha da genişlənəcək. Çünki peyklərimizin xidmətindən istifadə edən ölkələrin sayı ildən-ilə artmaqdadır. Bu isə ölkəmizin iqtisadi qüdrətinin daha da güclənməsi deməkdir.

**Vəli İlyasov,**
***"İki sahil"***

*Elçin Quliyev:*

## Dinamik inkişaf uğurla davam edir



"Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz dinamik inkişafını uğurla davam etdirir". Bu fikri Milli Məclisin deputatı Elçin Quliyev deyib.

E.Quliyev bildirib ki, dövlətin iqtisadi siyasətinin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi aspektin mövcudluğunun ön plana çəkilməsidir. Onun sözlərinə görə, dövlət proqramlarının, ölkə başçısının Fərman və sərəncamlarının icrası Azərbaycanda gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payı və rolunu davamlı şəkildə artırır.

"Ölkə iqtisadiyyatında özəl sektorun üstünlük qazanması, neft hasilatının və gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməsi də Prezident İlham Əliyevin iqtisadi siyasətinin ana xəttini təşkil edir. Azərbaycanın sosial-iqtisadi yüksəlişi bu gün ilk növbədə insanların gündəlik həyatında özünü qabarıq büruzə verir. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır. Prezident İlham Əliyev imzaladığı Fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin edib, dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olub. Bütün bunlar ölkəmizin inkişafı prosesində yüksək nəticələr verməkdədir"- deyə, deputat qeyd edib.

*Tahir Süleymanov:*

## İqtisadiyyatın şaxələndirilməsi ilə bağlı mühüm tədbirlər həyata keçirilir



"Bu gün ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı mühüm tədbirlər həyata keçirilir". Bu fikri Milli Məclisin deputatı Tahir Süleymanov deyib.

T.Süleymanov bildirib ki, son bir ilin mühüm addımlarından biri kimi Prezident İlham Əliyevin Fərmanı ilə təsdiqlənmiş sayca dördüncü "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın qəbulu qeyd olunmalıdır. Onun sözlərinə görə, bölgələrə mütəmadi səfərlər edən Prezident İlham Əliyev bu səfərlər zamanı həm görülən işlərə nəzarət edir, həm də yerlərdə vətəndaşlarla görüşür, onları narahat edən problemlərin həlli istiqamətində göstərişlər verir.

"Bölgələrin sosial-iqtisadi durumunun yaxşılaşdırılması, həmçinin infrastruktur layihələri ilə əlaqədar biri-birindən önəmli sərəncamlar imzalanıb. Hər bir rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsi üçün əlavə tədbirlər planının təsdiqlənməsi və büdcədən vəsaitlərin ayrılması da qeyri-neft sektorunun inkişafının prioritet olmasından xəbər verir", - deyə T.Süleymanov vurğulayıb.

## Bakı-Tbilisi-Qars dəmir yolu ilə Türkiyədən Gürcüstana ilk yük qatarı yola salınıb



Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu ilə Türkiyədən ixrac məhsullarını Gürcüstana aparan ilk yük qatarı Ərzurumdan yola düşüb.

Bu münasibətlə rəsmi yolasalma mərasimi təşkil olunub. Qatar Ərzurumdakı "Palandökən" Logistika Mərkəzindən yola salınıb.

Mərasimdə qeyd edilib ki, il ərzində BTQ ilə Gürcüstana 120 min ton dəmir məhsullarının daşınması planlaşdırılır.

# Ölkəmizə turistlər daha çox hardan gəlir?..



Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, 2019-cu ilin yanvar-iyun aylarında Azərbaycana dünyanın 185 ölkəsindən 1410,7 min və ya 2018-ci ilin yanvar-iyun ayları ilə müqayisədə 6,5 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Gələnlərin 29,4 faizi Rusiya Federasiyası, 24,3 faizi Gürcüstan, 10,5 faizi Türkiyə, 7,5 faizi İran, 2,6 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,4 faizi Səudiyyə Ərəbistanı, hər birindən 1,9 faiz olmaqla Ukrayna və Hindistan, 1,5 faizi Türkmənistan, hər birindən 1,4 faiz olmaqla Böyük Britaniya, Qazaxıstan və İraq, 1,3 faizi Pakistan, 12,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub.

Ölkəmizə yanvar-iyun aylarında gələnlərin sayında daha çox artım Misir (83,1 faiz), Türkmənistan (81 faiz), Hindistan (80,3 faiz), Çin (77,1 faiz), Səudiyyə Ərəbistanı (76,7 faiz), Macarıstan (52,4 faiz), Böyük Britaniya (35,7 faiz), Kanada (30,8 faiz), Cənubi Koreya (29,5 faiz), Almaniya (27,2 faiz), Yaponiya (24,6 faiz), Pakistan (24,4 faiz), Gürcüstan (22,8 faiz), Polşa (20,2 faiz) və Qazaxıstan (15,1 faiz) vətəndaşları arasında qeydə alınıb.

Regionlar üzrə götürdükdə, Cənubi və Mərkəzi Asiya ölkələrindən gələnlərin sayında sürətli artım davam edib. Bununla da artım ilin ilk yarısı üçün müvafiq olaraq 37,8 faiz və 50,2 faiz olub.

Hesabat dövründə bundan başqa, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 24,3 faiz, MDB ölkələrindən gələnlərin sayı isə 5 faiz artıb.

Ən böyük azalma isə İrandan gələnlərin arasında müşahidə olunub. Dövlət Turizm Agentliyinin məlumatına görə, 2018-ci ilin ilk yarısı ilə müqayisədə bu ölkədən gələnlərin sayında 40 min və ya 27,5 faiz azalma olub. Azalma, həmçinin Yaxın Şərq regionundan gələnlər arasında da mövcuddur; sözügedən regiondan 7 min və ya 4,4 faiz az qonaq gəlib. Bu hal əsasən İraq, BƏƏ və Küveyt kimi ölkələr üçün xarakterikdir. Bu ölkələr üzrə azalma 2018-ci ilin eyni dövrü ilə müqayisədə 31,5 faiz, 25 faiz və 14,1 faiz olub.

Lakin qeyd etdiyimiz kimi, həmin regionda Səudiyyə Ərəbistanından gələnlərin sayında kəskin artım müşahidə olunub ki, bu da 15 min nəfər artımla 34 mindən çox xarici vətəndaş deməkdir.

Eyni zamanda, iyun ayında da gələnlərin sayında əhəmiyyətli dərəcədə -17,2 faiz artım olub. Xüsusilə də Cənubi, Mərkəzi və Şərqi Asiya ölkələrindən gələnlərin sayında rekord həddə artım olub. Cənubi Asiyadan gələnlərin sayında 85,3 faiz, o cümlədən Hindistan və Pakistan əcnəbilərinin sayı müvafiq olaraq 104 faiz və 75 faiz artıb. İran, Türkiyə, Yaxın Şərq və Rusiyadan gələnlərin sayı müvafiq olaraq 13,6 faiz, 20,5 faiz, 16,7 faiz və 7,7 faiz artıb.

Qeyd etmək lazımdır ki, iyunda uzun sürən azalmadan sonra Azərbaycana gələn İran vətəndaşlarının sayında ilk dəfə olaraq artım müşahidə edilib. Yaxın Şərq ölkələri arasında Səudiyyə Ərəbistanını xüsusi olaraq vurğulamaq olar. Belə ki, iyun ayında bu ölkədən 10 min və 82,5 faiz daha çox qonaq gəlib. Bununla belə iyun ayı üzrə ən böyük artım Gürcüstandan gələnlər arasında müşahidə olunub. Belə ki, ötən ilin eyni ayı ilə müqayisədə bu ölkədən 11 min və ya 23,4 faiz daha çox xarici vətəndaş gəlib.

**Dövlət Turizm Agentliyinin Media və ictimaiyyətlə əlaqələr sektorunun müdiri Kənan Quluzadənin "İki sahil" qəzetinə bildirdiyinə görə,** ölkəyə turist axınında müşahidə edilən artım bu istiqamətdə görülən işlərin məntiqi nəticəsidir. Sektor müdiri, eyni zamanda, cari ilin 6 ayı ərzində ötən ilin eyni dövrü ilə müqayisədə bəzi istiqamətlərdə azalmanın olmasına münasibət bildirərək bunu həmin regionlardakı siyasi-iqtisadi problemlərlə əlaqələndirib: "Məlum olduğu kimi, İranın siyasi-iqtisadi problemləri var. Onlarda turist vergisi var, yəni ölkədən çıxanda da vergi ödəyirlər. Artıq onlar bu məbləği artırıblar. Eyni zamanda, İranda xarici valyutanın əldə edilməsi ilə bağlı problemlər də var. Ona görə də İrandan çıxış ümumilikdə 50 faizdən çox azalıb. Bu da özünü həm Cənubi Qafqaz, həm də digər regionlara səfər edənlərin sayında göstərib. Bununla belə iyun ayında İrandan Azərbaycana gələnlərin sayında artım müşahidə edilib.

Həmçinin Yaxın Şərq də iqtisadi-siyasi cəhətdən sabit deyil. Bu ilin əvvəlində həmin bölgədən aviareyslərin sayı azalmışdı. Lakin daşımalara yeni aviaşirkətlər qoşulduğuna görə yenidən artımın olacağı gözlənilir".

K.Quluzadə qeyd edib ki, turizm ikitərəflidir, biri var qəbul edən ölkə, biri də var çıxış ölkə. Çıxış ölkələrdə problem olanda, bu, qəbul edən ölkələrdə turistlərin sayına təsir edir: "Biz anlayırıq ki, bəzi bazarlar qeyri-sabitdir. Ona görə də konsepsiyamızı yeni bazarların açılması və yeni turistlərin cəlb edilməsi üzərində qurmuşuq. Yeni bazar deyəndə buraya Cənubi-Asiya, Çin bazarlarını aid edirik. Bunlar Azərbaycan turizmi üçün yeni bazardır. Onlarda artımı təmin etdiyimizə görə, qeyri-sabit bazarlarda azalma olmasına baxmayaraq ümumi sayda artım təmin edilir. Yəni müşahidə edilən artım yeni bazarların açılmasının nəticəsidir.

Bazarlar həmişə dəyişəcək. Azərbaycanın 2018-2023-cü illəri əhatə edən turizm konsepsiyasında göstərildiyi kimi, 12 prioritet bazar seçilib və həmin bazarlardan turistlərin cəlb edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Nəticə də onu göstərir ki, bu, uğurlu alınır və artım təmin edilir".

2019-cu ilin yanvar-iyun ayları üzrə, eyni zamanda, xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı da məlumdur. Bu göstərici əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 25,8 faiz artaraq 2540,9 min nəfər olub. Bununla da ölkə vətəndaşlarının 39,1 faizi İrana, 27,1 faizi Gürcüstana, 18,1 faizi Rusiya Federasiyasına, 10,2 faizi Türkiyəyə, 5,5 faizi isə digər ölkələrə gediblər.

Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 71,4 faiz, Gürcüstana gedənlərin sayı 11,3 faiz, Rusiya Federasiyasına gedənlərin sayı 7,3 faiz, Türkiyəyə gedənlərin sayı isə 1,4 faiz artıb.

Sonda Dövlət Turizm Agentliyinə istinadən xatırladaq ki, bu rəqəmlər turizm məqsədilə səfər edən şəxslərlə yanaşı, BMT-nin Ümumdünya Turizm Təşkilatının 2008-ci ilin Turizm Statistikası üçün Beynəlxalq Tövsiyələrinə uyğun olaraq, bu kateqoriyaya aid edilməyən digər səyahətçiləri də əhatə edir.

**Ceyhun Piriyev,**
***"İki sahil"***

# MEDİA MƏSULİYYƏTİ:
# Nəyi necə təqdim etmək...

(I yazı)

**Bu günlərdə milli mətbuatımızın 144 yaşını qeyd etdik. Bəzi jurnalistlər peşəsinin tələbi ilə yenə olanları -olmazları yazdılar-pozdular, bəzi "jurnalistlər" nəyisə "bayram etdilər", özlərinə tərif də dedilər, daha cəsarətliləri isə özlərinə tənqid güzgüsündən də nəzər saldılar.**



Uzağa getməyək, elə bu günlərdəki son yazımızda jurnalist peşəsinin şərəfli, ağır və məsuliyyətli bir iş olduğundan və milli mətbuatımızda kifayət qədər işinin peşəkarı olan insanlardan söz açdıq. Bugünkü mövzumuza məhz bu fikri bir daha təsdiqləyərək keçməyi özümə borc bilirəm.

22 İyul - Milli Mətbuat Gününü də təqvimin növbəti günlərindən biri kimi atlatdıq, dedik-güldük, özümüzlə zarafatlaşdıq. İndi isə oxucuya bir az da yaxın oturub bir daha qarşılıqlı məsuliyyətimizdən ciddi-ciddi danışmağın məqamı çatdı yenə.

Pozitiv bir haşiyədən başlayım: İşə gedib-gələrkən, yaxud şəhərdə hərəkət edərkən Bakı Nəqliyyat Agentliyinin (BNA) təxminən bir il öncə başlatdığı "Sevgi - məsuliyyətdir" adlı sosial maarifləndirmə layihəsinin "Bakubus" avtobusları üzərindəki eyniməzmunlu bu mesajı ilə rastlaşarkən hər dəfə düşünürəm ki, sadə, kiçik, amma özündə çox böyük mətləbləri ehtiva etdirməyi bacaran necə gözəl və mənalı bir cümlədir. Bu minimalist cümləni maksimum şəkildə həyatımızın bəlkə də bütün sferalarına aid etmək mümkündür. Ən maraqlısı da odur ki, şəhərin müxtəlif yerlərində, fərqli zamanlarda gözə dəyən bu cümlə hər dəfə insanın oynaq əhval-ruhiyyəsinə stabilləşdirici təsir göstərərək hansısa mühüm qərarı verməsinə də yardımçı ola bilər.

Bu cümlədəki sözlərin yerini dəyişəndə məna miqyası məhdudlaşsa da, bu cümlə inversiya halında da keçərlidir: Məsuliyyət - sevgidir!

Mövzumun özəyinə də məhz burdan giriş vermək istəyirəm. Əvvəlcə çoxumuzun bildiyi məqamdan başlayım ki, xəbərin, informasiyanın, yazının təqdimat üslubu, onu oxucuya çatdırma şəkli çox vacibdir, bəzən hətta həyati əhəmiyyətlidir. Təqdimat üslubunu seçmək hər bir peşəkar jurnalistdən məsuliyyətli olmağı tələb edir. Məsuliyyətli olmaq həm də öz peşəsinə olan sevginin göstəricisidir. Tərsindən baxanda isə peşəsini sevmək də gördüyü işə və bundan yarana biləcək nəticələrə daha məsuliyyətli yanaşmaqdır.

BNA-nın o gözəl cümləsinə gəlsək, bu yazıda məqsədimiz heç də o cümlənin müxtəlif prizmalardan məna təhlili deyil. Sadəcə, təqdimata dəyər şeyləri vaxtaşırı təkrarlamaq da gözəldir. Ümumiyyətlə, içindən məsuliyyətin adının keçdiyi və məsuliyyətin olduğu hər şey təqdirəlayiqdir.

Keçək söhbətimizin məğzinə. Dövrün tələbinə uyğun olaraq bu gün internetin böyüklü-kiçikli, cavanlı-qocalı demək olar ki, hamının əlinin altında olan nəsnəyə çevrildiyi danılmazdır. "Ağıllı" smartfonlar həyatımıza daxil olan andan artıq internet media resurslarının əlyetən olması üçün heç də kompüterlərə ehtiyac qalmayıb. Hər kəs əl boyda bir "ağıllı" ilə internet dünyasının o başından vurub bu başından çıxır.

Milli internet resurslarımıza nəzər salsaq, müxtəlif saytlarda, xəbər portallarında dəqiqəbaşı qarşımıza çıxan kriminal avtoritetlərin, "qanuni oğrular"ın həyatı, fəaliyyəti ilə bağlı həvəsləndirici, istək oyadıcı, təhrikedici üslubda oxuculara təqdim olunan xəbərləri ilə rastlaşırıq. Bəli, jurnalistin işi hər şeydən xəbər tutmaq və bu xəbəri oxucuya çatdırmaqdan ibarətdir. "Oğru dünyası"nın qan və cinayət qoxuyan yenilikləri haqqında da hərdən xəbər hazırlamaq jurnalistin fəaliyyət sferasına daxildir. Ancaq gəlin görək, media müstəvisində nəyi necə çatdırırlar? Məqsədimiz zərrəbinimizi belə xəbərlərin hazırlanması faktına yox, belə informasiyaların çatdırılma üslubuna yaxınlaşdırmaqdır. Lupanın böyüdülmüş şüşəsi altında gördüyümüz isə kriminal avtoritetlərin guya dəbdəbəli, eyş-işrətli və lüks həyatının şirnikləndirici notlarla təqdimatıdır. Əslində isə bu zahiri lüks- axıdılan günahsız qanlar, narkotika ticarəti, uyuşdurucu maddələrlə məhv edilən gənc həyatlar, müxtəlif motivli saysız-hesabsız cinayətlər, qanunlara sayğısızlıqlar və məsum insan talelərinə olan məsuliyyətsizliklərin toplusu üzərində bərqərar olmuş çürük, uydurma bir "imperiya"dır! Qanun projektorunun işığında baxanda bütün bu "imperiya" illüziyası sadəcə "avtoritet" adlandırılan canilərin, qatillərin və onların hədəf seçdikləri qurbanlarının cəhənnəmidir. Bəzi saytlar isə bu cəhənnəmi elə şəkildə oxucuya təqdim edirlər ki, yaşı və həyat təcrübəsizliyi baxımından xarakteri tam oturuşmamış gənclərdə, hansısa səbəblərdən taleyində müəyyən mənəvi, maddi boşluqlar yaşayan insanlarda həvəsləndirici effekt yaradır. Danılmaz faktdır ki, medianın kütlələr üzərində çox böyük rolu var. Ancaq media təmsilçiləri unutmamalıdırlar ki, məsuliyyətləri o roldan daha da böyük olmasa, bəlkə heç fərqinə belə varmadan insan faciələrinə "yardımçı" ola bilərlər.

Medianın "Overton pəncərəsi" texnologiyası ilə qanunsuzluq və cinayəti nəinki adiləşdirərək, hətta buna həvəs yaradaraq təqdim etməyə ən azından mənəvi haqqı yoxdur. Kiçik bir xatırlatma etsək, "Overton pəncərəsi"nin adı elmi ədəbiyyatlarda hər şeyin (hətta bəzən ağlasığmaz və mümkünsüz görünən mətləblərin belə) leqallaşdırılması, cəmiyyət tərəfindən tabu kimi qəbul edilmiş məsələlərin adiləşdirilməsi texnologiyası kimi keçir. "Mackinac Center" ictimai-siyasət mərkəzinin birinci vitse-prezidenti, 2003-cü ildə təyyarə qəzasında həyatını itirən Jozef Overtonun ölümündən sonra onun ismi ilə adlandırılan bu təqdimat modelinin mahiyyətində ictimai rəydə hansısa problem haqqında təsəvvürlərin bəzən hətta köklü şəkildə dəyişməsi dayanır. J.Overton cəmiyyətə tamamilə yad olan, bəşəriyyətin rədd etdiyi ideyaların dəyərlər sistemindən götürülərək təmizlənməsi və mərhələli aparılan proses şəklində leqallaşdırılmasının əhatəli şəkildə təsvirini verən müəllifdir. Bəli, səhv anlamadınız, "Overton pəncərəsi" texnologiyası ilə yavaş-yavaş, mütəmadi şəkildə "beyinyuma" vasitəsilə hətta hannibalizm, pedofillik kimi insanlıqdan uzaq, qəbuledilməz antibəşəri nəsnələri belə insanlar üçün adiləşdirmək, qəbuledilən etmək mümkündür. Necə? Əlbəttə ki, mətbuatın müxtəlif "qanadları" ilə- televiziya, radio, qəzet, jurnal, saytlar və sosial media vasitəsilə.

Mövzumuzun kriminal avtoritetlər hissəsinə dönsək, bəzi saytlar və sosial media şəbəkələri reytinq naminə "qanuni oğrular"ın saxta dəbdəbəsini "ballandıra-ballandıra" təqdim edib müəyyən yaş həddində təbəddülat yaşayan gənclərin fikrini qarışdırmaqdansa, bu "lüksün" nə üzərində qurulduğunu və hansı labüd sonluqla bitəcəyini anlatmalıdır. Bax, onda buna dəyərlər mətbuat məsuliyyəti və media xoşniyyətliliyi.

Bütün kriminal avtoritetlərin və onların yanında yer alan cinayətkarların həyatı bu və ya digər şəkildə müxtəlif cinayət(lər)dən və dövlət qanunlarını tapdalamaqdan keçib. Və buna görə də təbii olaraq bu qövmün həyatının bəzən on illəri dəmir barmaqlıqların arasında keçir. Hansısa saxta güc göstərisi əşqilə ömürlərinin ən gənc dövrlərini həbsxanalarda xərcləyən kriminallar, mafiya üzvləri və onların tör-töküntülərinin öz "aləmlərində" yaratdıqları süni "qüdrət" illüziyası əslində özlərini aldatmaqdan başqa bir şey deyil.

Söhbət təbii ki, taleyin gətirməzliyindən, ehtiyatsızlıqdan, bilmədən, istəmədən hansısa cinayətə bulaşan kəsimdən getmir, məhz kriminal olmağı qarşısına məqsəd kimi qoyub təcrübəsiz gəncləri də müəyyən vasitələrlə özlərinə oxşatmaq və "canilər cəhənnəminə" cəlb etmək istəyən cinayətkarlardan gedir. Bəzi saytlar xüsusilə vurğulayırlar ki, guya "qanuni oğrular" ədaləti özünəməxsus şəkildə bərpa edirlər, haqqı tapdalanan insanlara yardım göstərirlər. Özlərini "qanuni " saysalar belə başqalarının canını, malını, etibarını, inamını, gələcəyini, taleyini "oğurlayan" , yaxud da oğurlamağa cəhd edən, adı üstündə olan bu oğrular cəmiyyətə necə xoş olan nəsə verə bilərlər? Bu "avtoritetlər"in əksəriyyəti müxtəlif psixozlardan, psixopatik şəxsiyyət pozğunluğundan əziyyət çəkən mənəvi mutantlar, residivistlər, silsilə qətllər törədən qatı cinayətkarlardır. Tibbi nöqteyi-nəzərdən ən azından müalicə olunacaq, bəzən hətta cəmiyyətdən təcrid olunacaq səviyyədə məxsusi təyinatlı səhiyyə ocaqlarına qapadılacaq ciddi psixoloji xəstələrdir. Onlar heç də bəzi media orqanlarının təqdim etdiyi kimi, "işıq savaşçıları" deyillər, məqsədli şəkildə can almaqdan, öldürməkdən, məhv etməkdən həzz alan manyaklardır. "Su sənəyi suda sınar" deyiblər. Bunların da ömürləri ya həbsxana küncələrində, ya da özlərinə bənzər cinayətkarların əli ilə "arxa məhəllələrdə", əksər hallarda da elə cavan yaşlarından kor güllələrə, sui-qəsdlərə qurban gedərək yekunlaşır. Özlərini məğlubedilməz "qüdrət" sahibləri sayan avtoritetlər mütləq şəkildə gözəl günlərin birində onsuz da ya dövlətin qanunlarına, ya da yuxarıdakı səbəblərdən gənc yaşlarından Ələhəzrət Ölümə tabe olurlar. Və tabe olmamaq haqqında özlərinin qurduqları mif elə darmadağın olur ki...

Media illah ki, qanuni oğrulardan xəbər hazırlamaqdan vaz keçə bilmirsə, o saxta "güc görüntüsü"nü bəh-bəhlə təqdim etmək əvəzinə, məqsədli kriminallaşmanın gec-tez hansı sonuclarla nəticələnəcəyini də yazdığı xəbərdə subliminal və ya açıq şəkildə mesaj vermək məsuliyyətini özündə hiss etməlidir. Belə olmadığı halda, bəzi media orqanlarının bu şirnikləndirmə fasonuna baxanda onların da hansısa kriminal dairələrə xidmət etdiyi təsəvvürü yaradır.

Gənclər kriminal avtoritetlərin hədəfi olmaqdan, narkotiklərdən, cinayət dünyasına cəlb olunmaqdan və həmçinin ya qeyri-peşəkarlıqdan, yaxud da məqsədli şəkildə bu mövzunu qabardıb tirajlayan bəzi media "orqanlarından" da qorunmalıdır! Bu qoruma missiyasını maarifləndirmə yolu ilə gerçəkləşdirmək hamının - valideynlərin, cəmiyyətin, ziyalıların vəzifəsi olduğu kimi, həm də gerçək medianın - peşəkar, məsuliyyətli mətbuatın işidir. İşimizi görək. Ki, gəncliyimizi "ələ keçirməsinlər".

Humanizm prinsiplərindən yanaşdıqda isə nə qədər yanlışlardan və günahlardan keçmiş olsa belə, insanın adam kimi adam olmaq üçün həmişə şansı var. Aleksandr Soljenitsın yazırdı ki, insan məzardan dönməz, amma xətadan dönə bilər...

**Sevinc Mürvətqızı,**
***"İki sahil"***

**P.S.** ***Müdriklərdən birinin maraqlı bir deyimi var: "Yaxşı mətbuat xalqın özünün özü ilə söhbətidir". Ümumiyyətlə, niyə xalq olaraq da, media olaraq da bu söhbəti işıqlı mövzuların üzərində qurmayaq, problemlərimizin həllinə pozitiv istiqamətdən diqqəti cəmləməyək ki? Taleyin müəyyənləşdirdiyi ömür müddətini hər gün azad bir insan olaraq başını səmaya qovzayıb günəşi, buludları, ulduzları görə bilmək, dəyər verən və dəyər verdiyin insanların əhatəsində olmaq, onları bütün qəlbinlə sevmək və bütün bunların varlığı üçün daxili minnətdarlıq duyğusu ilə, böyük Nazim Hikmət demişkən, "bir ağaç gibi tek ve hür ve bir orman gibi kardeşçesine" yaşamaqdan gözəl nə var ki?..***

# BTQ: Ölkələri və insanları birləşdirən iqtisadi, mənəvi körpü

## Çinin "Bir kəmər, bir yol" təşəbbüsü regionda yeni siyasi vəziyyət yaradır

**Azərbaycanda səfərdə olan Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sun Taonunla görüşən Prezident İlham Əliyev rəsmi Pekinin təşəbbüsü olan "Bir kəmər, bir yol" layihəsini yüksək qiymətləndirərək dövlətlərarası əlaqələrin möhkəmlənməsindəki əhəmiyyətindən də bəhs etdi. Tarixi İpək Yolunun bərpası olan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun dünyanın nəqliyyat xəritəsini dəyişməsi ilə bağlı fikirlərini bildirdi. Dövlət başçımız bu yaxınlarda Çinin Sian şəhərindən Azərbaycana yük qatarının gəlməsini əməkdaşlığımızın iqtisadi, o cümlədən nəqliyyat sahələrində yaxşı perspektivinin göstəricisi kimi dəyərləndirdi.**



Dünyanın 100 möhtəşəm layihəsi siyahısına daxil edilən, Azərbaycanın təşəbbüsü ilə gerçəkləşən neft- qaz kəmərlərindən sonra qitələri birləşdirən qlobal infrastruktur kimi dünya birliyinin diqqətini cəlb edən Bakı-Tbilisi-Qars dəmir yolunun beynəlxalq əhəmiyyəti qısa müddətdə təsdiqləndi. Dünya dövlətlərinin "ənənəvi iqtisadi hesabat tribunası"na çevrilən Davos Dünya İqtisadi Forumu çərçivəsində təşkil olunan "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusuna həsr olunmuş sessiyada çıxış edən Prezident İlham Əliyev qlobal müasir infrastrukturun yaradılmasının mahiyyət və əhəmiyyətindən ətraflı bəhs edərək BTQ dəmir yolunu tərəfdaş ölkələrə iqtisadi səmərə gətirən, xalqları yaxınlaşdıran, bölgədə sabitliyi təmin edən mənəvi körpü adlandırdı. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən layihələrin uğurla nəticələnməsini tərəfdaş ölkələrin birgə səyinin nəticəsi kimi dəyərləndirən cənab İlham Əliyev bildirdi ki, qonşularsız tranzit ölkə olmaq mümkün deyil: "Bizim qonşularımız onların qonşuları olmadan tranzit ölkələr ola bilməzlər. Buna görə bu, ölkələr zənciridir və bayaq dediyim kimi, biz Şərqdən Qərbə və Şimaldan Cənuba gedən yol üzərindəyik. Beləliklə, biz qitələri, ölkələri birləşdiririk və daha proqnozlaşdırıla bilən gələcək yaradırıq."

Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsində əsas məqsəd beynəlxalq nəqliyyat şəbəkəsini genişləndirmək, tarixi İpək Yolu üzərində yerləşən ölkələr arasında siyasi, iqtisadi münasibətləri möhkəmləndirməkdir.

Eyni fikirlərini daha ətraflı Çinin CGTN televiziyasına müsahibəsində şərh edən, qlobal əhəmiyyət daşıyan infrastruktur layihələrinin genişlənməsində Çinlə əməkdaşlıqda maraqlı olduğunu bildirən Prezident İlham Əliyev vurğulamışdır ki, Azərbaycanın təşəbbüsü ilə reallaşan, gəlir gətirən layihələr həm də başqa ölkələrin iqtisadi inkişafı üçün əlavə imkanlar yaradır: "Lakin uzunmüddətli investisiyalara gəldikdə əsas məqsəd elə bir infrastrukturun yaradılmasıdır ki, o, uzun zaman ərzində fəaliyyət göstərsin və ölkəni dəyişmiş olsun, dünyanın ölkəyə münasibətini dəyişmiş olsun. Çünki bu infrastruktur layihələri olmadan Azərbaycanın coğrafi mövqeyinin bir o qədər də böyük mənası yoxdur. Biz ölkələri və insanları birləşdirməyə nail olmuşuq. Sizə deyə bilərəm ki, nəqliyyatla bağlı infrastruktur layihələri regionumuzda tamamilə yeni siyasi vəziyyət yaradır. Bir-birindən asılı olan ölkələr; biri tranzit ölkəsindən asılıdır, digəri tranzit ölkəsi olur, əlbəttə ki, onlar arasında daha yaxın münasibətlər yaranır. Onlar faydaları paylaşır, onlar bütün tərəfləri uduzmadığı bir vəziyyət tapa bilir."

Dövlət başçımız onu da qeyd edir ki, təkcə ikitərəfli yox, çoxtərəfli formatda da Xəzər dənizi vasitəsilə qitələrin birləşdirilməsi, Bakıda dəniz limanının tikintisi, dəmir yolu sisteminin Avropa strukturları ilə birləşməsi yeni əməkdaşlıq formatını yaradır: "Bizim hədəfimiz Azərbaycanda müasir infrastruktur yaratmaq və ölkəni müasirləşdirməkdir. Eyni zamanda, məqsədlərimizə - siyasi, iqtisadi və maliyyə məqsədlərimizə fəal əməkdaşlıq və qarşılıqlı dəstək vasitəsilə nail olmaqdır."

Pekində II "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda çıxış edən Prezident İlham Əliyev bildirdi ki, BTQ-ni istifadəyə verməklə, müasir nəqliyyat və logistika infrastrukturu yaratmaqla biz yalnız ölkəmizi mühüm nəqliyyat mərkəzinə çevirmədik. BTQ Şərq-Qərb və Şimal- Cənub dəhlizləri layihələrində iştirak edən ölkələr arasında möhkəmlənən əməkdaşlığa töhfədir. Azərbaycan Çin hökumətinin "Bir kəmər, bir yol" təşəbbüsünü daim dəstəkləyir, qonşu ölkələrin qlobal layihələrə qoşulmaq istəklərini yüksək dəyərləndirir. Çünki Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzvü olan yeganə ölkədir ki, infrastrukturun yenilənməsi ilə Xəzərin sahilində 25 milyon tona qədər yük daşımaq gücündə olan ən böyük dəniz limanı respublikamızın ərazisindədir.

Davos Dünya İqtisadi Forumunun hesablamalarında qeyd olunduğu kimi, yolların keyfiyyətinə görə dünyada 34-cü yerdə olan Azərbaycan "Bir kəmər, bir yol" layihəsini dəstəkləməklə qlobal nəqliyyat infrastrukturunun fəal üzvü olduğunu təsdiqlədi. Azərbaycan və Çin "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının təşviqinə dair Anlaşma Memorandumunu imzalamaqla Avropa ilə Asiya arasında müasir nəqliyyat infrastrukturuna malik vacib tranzit ölkəyə çevrildi. "Bir kəmər, bir yol" təşəbbüsü nəqliyyat sahəsində yeni imkanlar açmaqla, ticarət, turizm, xalqlar arasında əlaqələri möhkəmləndirir, Avrasiya məkanında sabitliyin, təhlükəsizliyin və sülhün bərqərar olmasına xidmət edir. Eyni əhəmiyyətə malik Bakı-Tbilisi-Qars dəmir yolu da təkcə Azərbaycan üçün deyil, bölgə dövlətləri üçün siyasi, iqtisadi, strateji baxımdan böyük əhəmiyyət daşıyır. Çindən başlayaraq Londona qədər uzanan BTQ dəmir yolu vasitəsilə Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərinə və Türkiyəyə birbaşa gediş imkanları yaranır.

Prezident İlham Əliyevin vurğuladığı kimi, "Dəmir İpək Yolu" tikintidə iştirak edən, dəmir yolunun inşası üçün iradəsini ortaya qoyan tərəfdaş dövlətlərin birgə səyinin töhfəsidir.

Dəmir yolunun açılışını tarixi hadisə, tərəfdaşların birgə səyinin bəhrəsi adlandıran, "Çindən gələn və əsasən Transsibir magistralı ilə daşınan yükləri Gürcüstandan keçərək İstanbula çatdıracaq, oradan isə Avropaya istiqamətlənəcək layihə əsas tranzit mərkəzinə çevrilməklə iqtisadi səmərəlilik baxımından da böyük əhəmiyyətə malikdir. Bakı-Tbilisi-Qars tarixi İpək Yolunun bir hissəsinin bərpası deməkdir və bundan Çin, Qazaxıstan, Orta Asiya, Azərbaycan, Gürcüstan, Türkiyə, Avropa ölkələri istifadə edəcəklər. Şimal-Cənub nəqliyyat dəhlizi Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Avropa ölkələrini birləşdirəcək. Azərbaycan hər iki layihədə fəal iştirakçıdır və öz maliyyə resurslarını ortaya qoyan ölkədir" söyləyən Prezident İlham Əliyev onu da qeyd edir ki, Azərbaycan nəqliyyat sektoruna çox böyük önəm verir və sərmayə ayırır.

Ölkəmizin təşəbbüsü və başçılığı ilə reallaşan Bakı-Tbilisi-Qars, Şimal-Cənub, Cənub-Qərb nəqliyyat dəhlizləri, eləcə də Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu (TBNM) kimi layihələr təkcə iqtisadi səmərəsi ilə deyil, ölkələrarası əməkdaşlığın genişləndirilməsi baxımından da diqqət çəkir.

Açıqlamalara görə, Şərqlə Qərb arasında il ərzində təxminən 40 milyona yaxın konteynerlərlə müxtəlif yüklər daşınır. Azərbaycan isə artıq həmin yüklərin daşınmasında mühüm halqalardan birinə çevrilir. İlkin hesablamalara görə, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi ilə 10-15 milyon ton yük daşınması planlaşdırılır və Azərbaycanın tranzitdən çox böyük gəlirlər əldə etmək imkanları artır. Bu, təxminən, ildə 250-300 milyon dollar deməkdir. Ümumiyyətlə, bu layihələrin reallaşması nəticəsində yüklərin Çin, Hindistan, Fars körfəzindən, Pakistan, İran, Azərbaycan, Gürcüstan üzərindən keçməklə, şimalda Rusiya və oradan Avropaya, qərb istiqamətində isə Gürcüstan və Türkiyə üzərindən Avropaya, əksinə yüklərin daşınmasına imkanlar yaranacaq. Bu baxımdan Azərbaycanın Çinin "Bir kəmər,bir yol" strategiyasının iki istiqamətindən biri olan və ölkələr arasında iqtisadi sahədə münasibətlərin daha da genişləndirilməsini nəzərdə tutan layihələrə töhfə vermək imkanı daha çoxdur.

BTQ vasitəsilə birinci mərhələdə 5 milyon ton, ondan sonrakı mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur. Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilən BTQ-nin fəaliyyəti nəticəsində bu yolun ərazisində yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu artacaq. Qısa müddət keçməsinə baxmayaraq, BTQ-nin rəqabət qabiliyyətinə malik olması artıq təsdiqlənib. Əvvəllər mənzil başına 40 günə çatan ənənəvi yüklər artıq 2 həftə ərzində daşınır.

"Bizim güclü iradəmiz, qarşılıqlı dəstək, bir-birimizə inam olan yerdə bütün işləri görmək mümkündür. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi bunun əyani misalıdır. Əminəm ki, regional əməkdaşlığa ən böyük töhfə verən ölkələr - Azərbaycan, Gürcüstan və Türkiyə bundan sonra da daim bir yerdə olacaqlar, bir-birini dəstəkləyəcəklər. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi kimi nəhəng layihələr bizim birliyimizi, dostluğumuzu daha da möhkəmləndirir" söyləyən Prezident İlham Əliyev onu da vurğulayır ki, Azərbaycanın təşəbbüsü ilə reallaşan layihələr dünyanın enerji, nəqliyyat xəritəsini dəyişməklə ölkəmizə marağı artırır, beynəlxalq aləmdə nüfuzumuzu yüksəldir.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***

## "AzerTelecom" "Microsoft" şirkətinin rəsmi tərəfdaşı oldu

AzerTelecom

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti "AzerTelecom" informasiya və kommunikasiya texnologiyaları sahəsində fəaliyyət göstərən dünya üzrə tanınmış şirkətlərlə tərəfdaşlıq əlaqələrini genişləndirir.

Ölkənin telekommunikasiya sektorunda artıq 10 ildən çoxdur fəaliyyət göstərən və Azərbaycanın regional rəqəmsal mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital HUB" proqramını icra edən "AzerTelecom" şirkəti İKT sektorunun qlobal iştirakçılarından biri olan tanınmış Microsoft şirkətinin rəsmi tərəfdaşı olub.

"Microsoft" şirkəti ilə tərəfdaşlıq "AzerTelecom" tərəfindən korporativ sektorda müştərilərə ən müxtəlif İT xidmətlərin, məhsul və qabaqcıl həllərin təqdim edilməsinə şərait yaradır. Bu tərəfdaşlıq imkan verir ki, "AzerTelecom" öz müştərilərinə "Azure" (bulud üzərindən həllər), "Microsoft 365" (korporativ müştərilər üçün zəruri məhsullar toplusu), "Microsoft Windows" (Server və User) məhsulu, Vahid Ünsiyyət - "Microsoft Teams" (Unified Communication), "Office 365" (İstifadəçilər üçün müxtəlif iş alətləri) və s. məhsul və həlləri təqdim etsin.

Qeyd edək ki, "Microsoft" şirkətinin Server Node avadanlığı "AzerTelecom" şirkətinin Data Mərkəzində də yerləşdirilib. Müvafiq avadanlığın "AzerTelecom" şirkətinin Data Mərkəzində yerləşdirilməsi Microsoft korporasiyasının proqram təminatının yenilənmələrinin burada cəmlənərək müştərilərə çatdırılmasını təhlükəsiz, sürətli və fasiləsiz həyata keçirir. Bu zaman müştərilər proqram təminatını mütəmadi yeniləyərkən Avropada və ABŞ-da yerləşən serverlərdən deyil, məhz Azərbaycandakı xüsusi təhlükəsizlik tələblərinə cavab verən və "Microsoft"-un Data Mərkəzləri ilə sinxronlaşdırılan serverlərdən daha sürətli əldə edə biləcəklər.

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR)

## "Azəriqaz" İstehsalat Birliyi

**Polietilen birləşmələrə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (29024-19) elan edir**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 20.08.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Satınalınan mallar üzrə müsabiqə təkliflərinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 27.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Satınalınan mallar üzrə iştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, Rus və ya İngilis dilində əldə etmək istəyənlər satınalınan mallar üzrə 236 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.
* Hesab nömrəsi:

Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təminatlar:*** Tələb olunmur.
Müsabiqə təklifinin təminatı:
I. İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur.
II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.
III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.
IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.
Avans ödənişinə görə təminat:
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
Müqavilənin yerinə yetirilməsi təminatı:
Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***V. Müqavilənin icra müddəti:***
satınalma müqaviləsi 45 gün ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.***

***VII. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu; Yusif Səfərov küçəsi, 23
Əlaqələndirici şəxs:
Cəlilov Ceyhun
"Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
+994 12 521-00-00 (daxili 29-489)
ceyhun.calilov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices

***IX. Satınalınan mallar üzrə müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 27.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə 11:00-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Satınalınan mallar üzrə müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İB-nin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR)

## "Azəriqaz" İstehsalat Birliyi

**Metal birləşmələr olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (29025-19) elan edir**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 20.08.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Satınalınan mallar üzrə müsabiqə təkliflərinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 27.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Satınalınan mallar üzrə iştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, Rus və ya İngilis dilində əldə etmək istəyənlər satınalınan mallar üzrə 236 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.
* Hesab nömrəsi:

Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təminatlar:*** Tələb olunmur.
Müsabiqə təklifinin təminatı:
*I. İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur.*
*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*
*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*
*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*
Avans ödənişinə görə təminat:
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
Müqavilənin yerinə yetirilməsi təminatı:
Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***V.Müqavilənin icra müddəti:***
satınalma müqaviləsi 60 gün ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.***

***VII. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu; Yusif Səfərov küçəsi, 23
Əlaqələndirici şəxs:
Cəlilov Ceyhun
"Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
+994 12 521-00-00 (daxili 29-489)
ceyhun.calilov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices

***IX. Satınalınan mallar üzrə müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 27.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə 11:30-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Satınalınan mallar üzrə müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İB-nin Satınalmalar qrupu**

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Heydər Əliyev adına Neft Emalı zavodu

**NÖC və avtomatika vasitələrinə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (17044-19/A) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 16 avqust 2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 (tələb olunan surətlərin sayı) surəti olmaqla 27 avqust 2019-cu il, Bakı vaxtı ilə saat 14:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 118 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.
Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department, SWIFT: İBAZAZ2X,
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR
Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department, SWIFT: İBAZAZ2X
Nizami str., 67, Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account\IBAN: AZ28IBAZ38110018409306332120 USD

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təminatlar:*** tədbiq edilmir
***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 3 ay müddətinə yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1060, Bakı şəhəri, Nizami rayonu,
O.Vəliyev küçəsi 1, 3-cü inzibati bina
Əlaqələndirici şəxs:
Mustafayeva İlahə, Maddi-texniki təchizat şöbəsinin mühəndisi
+994 12 521 00 00 Daxili: 17988
+994 12 521-23-51.
İlaha.mustafayeva@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 27 avqust 2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 15:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Heydər Əliyev adına Neft Emalı Zavodunun Satınalmalar qrupu**



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Qaz Emalı zavodu

**yanğınsöndürmə avadanlıqları və vasitələrinə (LOT 2), NÖC və A mal-materiallarına (LOT 3) və Laboratoriya mal-materiallarına (LOT 4) olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (30002-19) müddətinin uzadılmasını elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 31.07.2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi hər lot üzrə ayrı-ayrılıqda bir əsli və 2 surəti olmaqla 06.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər
Lot 2 üzrə - 59 manat
Lot 3 üzrə - 118 manat
Lot 4 üzrə - 59 manat və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:00-a kimi ala bilərlər.
* Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin veriləcək sifariş əsasında LOT-2 üzrə 5 ay, LOT-3 üzrə 120 təqvim günü və LOT-4 üzrə 60 təqvim günü müddətində yerinə yetirilməsi tələb olunur.
Satınalan təşkilatın ünvanı:
AZ 1063, Bakı səhəri, Qaradağ rayonu, Lökbatan qəsəbəsi.
SOCAR, Qaz emalı zavodu.
Əlaqələndirici şəxs:
Fayiq Babayev
Maddi-Texniki Təchizat və Kommersiya şöbəsinin, rəisi
korporativ telefon nömrəsi: +99450 843 00 17
+99412 521 20 56 - 30 017 (daxili)
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı: Fayiq.babayev@socar.az

***V. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VI. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 06.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Qaz Emalı zavodunun Satınalmalar qrupu**

# AXCP-Müsavat didişməsində “siyasi mühacir” faktoru

## YAXUD UTANMASAN OYNAMAĞA NƏ VAR Kİ...




**Özlərini müxalif düşərgənin “aparıcı” partiyaları kimi təqdim edən AXCP və Müsavatın cəmiyyətə bəlli olan tərəfləri- rəqiblikləri inkaredilməzdir. Hər zaman vurğulandığı kimi, AXCP-nin hazırda bir neçə adda fəaliyyət göstərməsi Müsavatın keçmiş başqanı İsa Qəmbərin gərgin əməyinin nəticəsidir. İllərdir bu iki partiya öz aralarında birincilik davasını aparsalar da düşərgə təmsilçilərinin özləri belə bu partiyaları ciddi qurum kimi qəbul etmir, onların siyasi meydanı tərk etmək zamanının çoxdan çatdığını bildirirlər.**

Bu məkanda “canlanma”, “özünü əldən salma”, “canfəşanlıq” anlarının hansı məqamlarda kulminasiya nöqtəsinə çatdığı da məlum olaylardandur. Elə ki, gözləntilər fiaskoya uğradı düşərgədə “yas mərasimləri” təşkil olunur, süstlük ölü həyatın başlandığına işarə olmaqla sanki dünənə kimi bir-birlərinin ünvanına ittihamları yağış kimi yağdırıb varlıqları barədə təsəvvür yaratmaq istəklərinin bir sifariş olduğuna işıq salır. Sonrakı mərhələ isə yaşananlara görə hakimiyyətin təqsirləndirilməsi ilə yadda qalır.

Bu gün də ssenariyə uyğun olaraq tamaşalar hazırlanır, oyunçular dəyişməz olsa da, müəlliflər sifarişlərə uyğun olaraq yenilənir. Əsas olan aldıqları sifarişlərin müqabilində qamarladıqları vəsaitlərdən kimin daha çox pay qoparmasıdır. Amma hər kəsə məlum olan bu mühüm məqamı xüsusi qeyd etməliyik ki, AXCP sədri Əli Kərimli bu sahədə daha çox təcrübəyə malik olduğundan onun qamarladığı vəsaitin həcmi digərlərindən çox olur.

Xaricdən gələn sifarişlər sırasında “siyasi məhbus”, “siyasi mühacir” məsələləri xüsusi yer tutur. Baxmayaraq ki, demokratik prinsiplərin inkişafı ilə məşğul olan Avropa Şurasının rəhbərliyi Azərbaycanla bu sahədə heç bir problemin olmadığını, “siyasi məhbus” probleminin qapandığını bildirir, amma daxili bədxahlarımızın və onlarla işbirliyində olan bəzi “hüquq müdafiəçiləri”nin ünvanladıqları fərqli “siyasi məhbus” siyahılarında fərqli sayda da insanların adının olması onların hansı kriteriyalar əsasında hazırlandığına işıq salır. Daha dəqiq desək, “siyasi məhbus”, “siyasi mühacir” məsələlərindən gəlir mənbəyi kimi bəhrələnən daxili ünsürlər beynəlxalq təşkilatlara ünvanladıqları müraciətlərdə də bu istəklərini qabarıq şəkildə büruzə verirlər. Nəzərə alaq ki, AŞPA-nın keçmiş həmməruzəçisi A.Qrossu, ABŞ konqresmeni K.Smiti dağıdıcı ünsürlərin yaxın dostuna çevirən də məhz bu məsələdə maraqlarının üst-üstə düşməsidir.

Mətbuatda bu fakt da açıqlanır ki, Müsavat Partiyası son 6 ayda 500-ə yaxın insana partiyaya üzvlüklə bağlı saxta arayış verib. Bu addımın da mühacirətlə bağlı olduğu bildirilir. Göründüyü kimi, Müsavat Partiyası ənənəsinə uyğun olaraq AXCP-nin bu məsələdə xarici himayədarlarından qopardığı vəsaitdən uzaqlaşdırmaq yolunu tutub. “Siyasi mühacir” adı altında təqdim etdikləri insanlara görə həm əlavə vəsait əldə edir, həm də öz çirkin məqsədlərini həyata keçirmək üçün onlardan bir vasitə kimi bəhrələnirlər. Belə ki, bu ünsürlərin “siyasi mühacir” kimi təqdim etdikləri şəxslər xaricdə Azərbaycanın əleyhinə təbliğat aparmaqla məşğuldurlar.

İstər bu günə qədər, istərsə də son zamanlar müxalif düşərgədə cərəyan edən proseslər ADP sədri Sərdar Cəlaloğlunun daim axtarışına çıxdığı “müxalifət siyasi meydanda niyə görünmür” sualını cavablandırır. O, xeyli zamandır bu suala cavab tapmaq üçün nə qədər cəhd göstərsə də, “nədənsə” həqiqəti söyləməkdə çətinlik çəkir. Bu “nədənsələr” hər zaman qeyd etdiyimiz bir reallığın təsdiqidir ki, etiraf böyük cəsarət tələb edir. Müxalifətin meydanının hansı səbəblərdən daraldığı nəinki ADP sədrinə, düşərgənin dağıdıcı qanadının hər bir təmsilçisinə məlumdur. Daim qeyd etdiyimiz kimi, ən böyük siyasət düzlükdür. Bu gün baş verən hadisələrə, əldə olunan uğurlara vətəndaşlıq təəssübkeşliyindən yanaşsaq, bir həqiqəti aydın ifadə etmiş olarıq ki, dövlətimizin uğurlu siyasəti, atılan biri-birindən mühüm addımlar Azərbaycanın hərtərəfli inkişafı üçün stimuldur.

Azərbaycanda demokratik inkişafın hansı səviyyədə olduğunu geniş şərh etməyə ehtiyac yoxdur. Bircə məqamı qeyd etmək kifayətdir ki, ölkəmizin demokratiya təcrübəsi digər ölkələrə nümunədir və bu, beynəlxalq səviyyədə də qeyd olunur. Demokratik və iqtisadi islahatların vəhdətliyi fonunda Azərbaycanın uğurlarının davamlılığı beynəlxalq əhəmiyyətli tədbirlərin ölkəmizdə keçirilməsinə böyük imkanlar açır. Ölkəmizdə azad mətbuatın inkişafı, insan hüquq və azadlıqlarının qorunması və yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi istiqamətində atılan addımlar davamlılığı ilə diqqət çəkir. Ölkə əhalisinin 85 faizdən çoxu internet istifadəçisidir. Sual olunur: demokratiyanı strateji kursunun əsas mahiyyəti kimi qəbul edib, həyata keçirdiyi islahatlarla bu yola sadiqliyini təsdiqləyən bir ölkəni “siyasi məhbus”ların, “siyasi mühacir”lərin olmasında, insan hüquqlarını kobud şəkildə pozmaqda ittiham etmək nə dərəcədə realdır və ədalətə uyğundur? Daxili bədxahlarımızın xarici anti-Azərbaycan qüvvələrin əlində bir vasitə rolunu oynaması düşərgə təmsilçilərinin etiraflarında da öz əksini tapır. Özlərinin tərtib etdikləri siyahılara əsasən bu və ya digər hüquq müdafiə təşkilatlarının adından çağırışlar səsləndirən dağıdıcı ünsürlərin müdafiəsinə qalxdıqları şəxslərin kimliyinə diqqət yetirsək, cızılan ssenarilərin müəllifləri və oyunçuları özü-özlüyündə açıqlanır. AMİP-in üzvlərinin də etiraf etdikləri kimi, saxtakarlıqla məşğul olanların başqalarını saxtakarlıqda ittiham etmələri gülüncdür.

Bu gün AXCP ilə Müsavat Partiyası arasında “siyasi məhbus” və “siyasi mühacir” siyahılarının tərkibinin genişləndirilməsi istiqamətində gedən yarış onların bu günə qədər qaranlıq fəaliyyətlərinə bir daha işıq salır. Əbəs yerə deyilmir ki, utanmasan oynamağa nə var ki...

*Yeganə Əliyeva,*
*“İki sahil”*

---

# ƏLİ KƏRİMLİ ÖMRÜNÜ MÜXALİFƏTDƏ ÇÜRÜTMƏYƏ MƏHKUMDUR



**Elçin Zaman**

### Xalqın onlara etimad göstərməməsinin çox ciddi səbəbləri var

İqtisadi və hərbi qüdrəti ilə regionun ən qüdrətli ölkəsinə çevrilən Azərbaycan artıq beynəlxalq hüququn güclü, nüfuzlu müstəqil subyekti kimi çıxış edir. Ən başlıcası isə siyasi-iqtisadi, sosial-mədəni və geosiyasi sahələr üzrə davam edən inkişafın biri-birini tamamlaması öz növbəsində ölkəmizi daha güclü, beynəlxalq miqyasda daha böyük nüfuz sahibi olan bir dövlətə çevirir.

Azərbaycan dövlətinin əldə etdiyi nailiyyətlər, qazandığı uğurlar, beynəlxalq hüquq müstəvisində istənilən məsələ üzrə milli maraqlarını qətiyyətlə müdafiə etməsi və bunun üçün lazımi gücün, qüdrətin sahibi olması başda Əli Kərimli olmaqla antimilli qüvvələr tərəfindən heç cür həzm edilmir. Bu antimillilər daha çox hüquq müdafiəçisi, qeyri-hökumət təşkilatı, siyasi partiya adı altında fəaliyyət göstərirlər. Ən dəhşətlisi isə odur ki, onlar Azərbaycan xalqına və dövlətinə hər zaman xəyanət etməyə hazırdırlar.

Bu qaragüruhçular ölkəmizdə daxili sabitliyi pozmağa yönəlik bir çox fəaliyyətlərin müəllifidirlər. Xüsusilə dağıdıcı müxalifətin anti-Azərbaycan şəbəkədən gələn göstərişlər əsasında fəaliyyətini genişləndirməsi onların hələ də xaricdən çirkli pullarla bəslənildiyini göstərir.

İndi görünən odur ki, radikal müxalifət yenidən Azərbaycanda növbəti faciələrin yaşanmasını, ölkəni ötən əsrin 90-cı illərinin anarxiya və xaos dövrünə sürüklənməsini istəyir. Bunun üçün qeyd edildiyi kimi, Azərbaycan əleyhinə çıxan ən müxtəlif xarici qüvvələrlə böyük məmnuniyyətlə işbirliyinə gedirlər. Məqsəd Azərbaycanda qarşıdurma yaratmağa nail olmaqla hakimiyyətə gəlmək, həmçinin qulluqlarında durduqları xaricdəki ağalarına ölkədə anarxiya yaradacaqlarına dair vədlər verib daha çox miqdarda pul qoparmaqdır.

Son günlərdə dağıdıcı müxalifət düşərgəsində belə absurd fikirlər də yer almağa başlayır ki, guya bir sıra ərəb ölkələrində yaşanan məlum hadisələr Azərbaycanda da təkrarlana bilər. Əslində, bunun mümkünsüzlüyü dağıdıcı müxalifətin özünə də yaxşı məlumdur. Çünki Azərbaycan demokratik islahatlarının əhatə dairəsinə və səmərəliliyinə görə, Avropa standartlarına çatıb.

Təkcə bir faktı qeyd etmək kifayətdir ki, ölkəmizdə 54 siyasi partiya, 4500-dək mətbuat orqanı qeydiyyatdan keçib. 2500-dək ictimai təşkilat fəaliyyət göstərir. Müxalifətin dağıdıcı qanadı olan qondarma “Milli Şura” və Müsavat Partiyası durmadan ölkəmizə qarşı böhtan kampaniyasını genişləndirirlər. Onlar həyasızcasına iddia edirlər ki, guya ölkəmizdə siyasi azadlıqlar pozulur, demokratik dəyərlər tapdalanır.

İstər xarici anti-Azərbaycan dairələr, istərsə də daxildəki “5-ci kolon” çalışır ki, Azərbaycan hər cür böhtanla beynəlxalq qınaq obyektinə çevrilsin, ictimai narazılıq artsın, ölkədə qarmaqarışıq bir vəziyyət yaransın. Bundan istifadə edən maraqlı çevrələr isə Azərbaycanda özlərinə gərəkli olan ssenariləri həyata keçirsinlər.

Hətta ölkəmizlə bağlı ən pis ssenari dağıdıcı müxalifətə hava və su kimi lazımdır. Uzunömürlü müxalifətçilik Əli Kərimlini və İsa Qəmbəri günbəgün zəiflədib siyasi gündəmdən silmək qorxusu altında saxlayır. Odur ki, onlar hər vəchlə güclənən Azərbaycanın əleyhinə formalaşacaq qüvvələrin önündə gedirlər.

---

# ATƏŞKƏS POZULUB

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 17 dəfə pozub.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Cəvahirli, Novruzlu, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.



# Ermənistan özü-özünü məhvə aparır

**Nilufər Mustafaqızı**

İllərdir sürünərək yaşayan, öz quyusunda boğulan Ermənistanda ictimai-siyasi vəziyyətin gərginliyi, özbaşınalıqlar, əhalinin hər bir sahədə narazılıqları, demoqrafik süqut, etiraz aksiyaları və s. buna bənzər hallar davam etməkdədir. Məlumdur ki, hal-hazırda eks prezident Robert Koçaryanın məhkəmə prosesi davam edir. İrəvan şəhər Apelyasiya məhkəməsində Koçaryanın əmlakına qoyulan müsadirə ilə bağlı iclas keçirilib. Ancaq məhkəmə gözlənilən kimi nəticələnməyib. Buna səbəb isə ittihamçıların iclasda iştirak etməmələri olub. Bu səbəbdəndir ki, proses hələ də məlum olmayan tarixə qədər təxirə salınıb. Robert Koçaryanın məhkəmə zalından sərbəst buraxılmasına qərar verən hakim David Qriqoryanla bağlı isə yeni faktlar üzə çıxıb. Hakimin ofisindən xeyli sayda arxiv sənəd sübutları, seyfi və xidməti kompyuteri müstəntiqlər tərəfindən götürülərək araşdırılmaları üçün xüsusi istintaq komitəsinə aparılıb. Artıq ona qarşı vəzifə səlahiyyətlərini aşma maddəsi ilə ittiham irəli sürülüb. Araşdırmaların aparıldığı müddət ərzində isə D. Qriqoryana ölkədən çıxmaması barədə bildiriş verilib və hakim xüsusi nəzarətdə saxlanılır.

Özbaşınalıqların, araçəkişmələrin bu qədər hökm sürdüyü ölkədə əlbəttə ictimai vəziyyət də hər gün daha da ağırlaşmaqda davam edir. Bu da təbii olaraq yerli əhalinin səbir kasasını daşırmaqda davam edir.

Belə bir vəziyyətdə "Çiçəklənən Ermənistan" partiyasının sədr müavini, deputat Naira Zurabyan Tavuş vilayətində olmuş və narazı sakinlərlə görüşərək onların ehtiyacları ilə maraqlanmışdır. Erməni mətbuatının məlumatlarına görə, N. Zurabyan adıçəkilən vilayətdə yaşayan əhalinin işsizlikdən, məmur özbaşınalığından əziyyət çəkməsi barədə danışıb. N. Zurabyan qeyd edib ki, sakinlər daha həyatlarından beziblər. Onlar hökumətin bu siyasətindən, əhaliyə qarşı diqqətsizliklərindən, məmurların onları incitmələrindən, istədikləri kimi hərəkət etmələrindən beziblər. Erməni hakim dairələri bir az baş qaldırmaq istəyən sadə kütləni sakitləşdirməkdə aciz qalırlar və bu səbəbdən də insanları müxtəlif şər və böhtanlarla günahlandıraraq, onları susdurmaq üçün səbəbsiz həbs edirlər. Belə bir mənzərə İcevan rayonunda baş verib. Bu da bir daha onu sübut edir ki, Ermənistan hökuməti özü-özünü məhvə doğru aparmaqda qəti qərarlıdır. Axı bir ölkə idarəçiliyi xalqı bu qədər qarşısına alarmı? Onların taleyi, gələcəyi erməni oliqarxlarını və məmurlarını, eyni zamanda, hakimiyyətin sükanı arxasında oturan heç kəsi maraqlandırmır.

Zurabyan mətbuata verdiyi açıqlamalarında onu da qeyd edib ki, mən bir qrup sakinlə görüşüb söhbət etdim. "Onlar iddia edirlər ki, biz körpələrimizin, uşaqlarımızın qarnını doyurmaları üçün yavan çörək tapmaqda belə çətinlik çəkirik." Acınacaqlı hallarını gözlər önündə yaşayan ermənilər təbii olaraq yaşamağa məhkum edildikləri həyata nifrət etdikləri idarəçiliyə qarşı çoxsaylı aksiyalar həyata keçirir, özləri özlərini bu vəziyyətdən xilas etməyə çalışırlar. Belə olan vəziyyətdə əsəbi kütləni sakitləşdirməkdə mükəlləf olan erməni polisi də onlara göstərilən əmrlərə uyğun hərəkət edir, əhaliyə qarşı kobudluq göstərirlər.

Artıq hər bir kiçik məsələdə böyük problemlər axtaran erməni məmurları sanki insanları incitməkdən zövq alırlar. Onlardan biri də Qubernator Hayk Çobanyandır. İnsanların meşələrdə odun yığmalarını belə bəhanə edərək onlara rahat yaşamağa imkan verməyən Çobanyan bunu meşələrə ziyan verilməsi kimi qiymətləndirsə də, əhali, meşəni məhv edən biz yox, elə Çobanyanın özüdür, - deyə etirazlarını bildirirlər.

Vəziyyətin ağırlığını müşahidə edənlər heç şübhəsiz ki, gedişatın bu səpkidə davam edəcəyini nəzərə alaraq, tezliklə İcevan hadisələrinin təkrarının Razdan və Sevan şəhərlərində də gözlənildiyini proqnozlaşdıra bilərlər.

ÖN XƏTDƏ DÜŞÜNCƏLƏR

# Nağıl qəhrəmanlarının gerçək qardaşları



Ruhum heç vaxt ön xətdən iraq düşməyib.

Düşüncələrimi həmişə könül mülkümün də, mənəvi dünyamın da şəriksiz səyyarəsi, düşüncələrimin davamının göyqurşağı bilmişəm.

Həmişə ön xəttə çatacatda mənə elə gəlir ki, bir az nəfəs dərib uğurumun son dayanacağına - Böyük Qələbənin şükranlığına tələsəcəm. Şükranlıq məqamında əlim qalib əsgərlərin əlində dincələcək, məmləkətimizə belə könülxoşluğu yaşadanları - "Böyük Qələbənin əsgəriyik biz" - deyənləri bağrıma basıb gömgöy göy üzünə baxacam...

Ön xətdə - səngərlərin həndəvərlərində uşaqlıq illərini, uşaqlığın bəyaz dünyasını xatırlamaq təzad deyilmi? Xatırlamada milli-xəlqi ruh varsa, milli-xəlqi ruha söykənən tarix, dövləti, dövlətçiliyi döyüş-döyüş qoruyanlar, qələbə-qələbə tarix yaradanlar, igidlik, igidlər, varsa, təzad deyil. Uşaqlığında dava-dava oyunlarının əsgəri olanlar hərbi xidmətdə o illəri bir qədər kövrəkliklə xatırlayırlar. Həmin xatırlamalarla səngərlərin həndəvərlərində bizim xatırlamalarımız arasında etiraf edilməsi bir bağlılıq var. Bayaqdan bəri həmin bağlılıq haqqında düşünürəm.

Uşaqlığımızda nağılları çox sevmişik, Məlikməmmədin igidliyinə, dərzi şagirdi Əhmədin ağlına, zəkasına vurulub nağıl-nağıl böyümüşük, nağıl-nağıl durulmuşuq. Məlikməmmədlər hər birimizin şəriksiz qəhrəmanı olub. Uşaqlar yeniyetmələşib, yeniyetmələr cavanlaşıb, cavanlar yaşa dolub - yaşlaşıb, Məlikməmmədlər həmişə eyni yaşda - igidlik yaşında qalıb.

Müharibə illərinin uşaqları nağıl qəhrəmanlarını tamam-kamal tanımağa macal tapmadılar, müharibənin qəhrəmanlarını tanıdılar. 1990-cı ilin 19 yanvar gecəsi imperiyanın tanklarının qarşısını kəsənləri tanıdılar. Şuşanı, Laçını, Kəlbəcəri, Ağdamı, Füzulini, Cəbrayılı, Qubadlını, Zəngilanı qoruyanları tanıdılar. Meşəli, Bağanis-Ayrım, Ağdaban, Xocalı faciələrindən onların da ürəyi burxuldu...

Bir az əvvəl əsgərlərlə səmimi söhbətimiz olmuşdu. Nağıl qəhrəmanlarıyla başlayan söhbətimiz qəhrəmanlarımızla tamamlanmışdı. Çavuş Yusif Nağıyev demişdi:

- Zamanında nağılları, nağıl qəhrəmanlarını biz də sevmişik. Elə həmin vaxtlarda müharibənin nə olduğunu ata söhbətlərindən, oxuduqlarımızdan, televiziyada gördüklərimizdən bilmişik. Elə o yaşlarımızda da dərk etmişik ki, müharibə döyüş, qəhrəmanlıq deməkdir. Qəhrəmanlarımızı tanıdıq və aydınlığıyla dərk etdik ki, nağıllar bizi bu qəhrəmanların qəhrəmanlığının mahiyyətini öyrənməyə, məqamında təkrarlamağa hazırlayırmış.

Nağılların bəmbəyaz dünyasında yeniyetmələşənlər, gəncləşənlər gördülər ki, uşaqlıq illərində nağılçılardan eşitdikləri, oxuyub tanıdıqları qəhrəmanlar ayrı adla, ayrı biçim qəhrəmanlıqlarla onlarla çiyin-çiyinə, nəfəs-nəfəsə yaşayırmış. Gördülər də, tanıdılar da, sevdilər də. Hər biri torpaqlarımıza tamah salanlara qarşı döyüşlərdə Azərbaycan əsgərinin, zabitinin qəhrəmanlığının məzmununu, necəliyini düşüncələrinə köçürə-köçürə hərbi xidmətə başlayıb, əsgərləşib. Müharibə illərinin uşaqları belə böyüyüb.

Bir az əvvəl əsgər Bəhlul Hüseynov demişdi:

- Uşaqlıqda hamımız Məlikməmməd olmaq, düşmənin kökünü kəsmək istəmişik. Az sonra Qarabağda gedən döyüşlərin qəhrəmanlarını tanımışıq. İctimaiyyətin onlara sevgisini görmüşük. Böyüyəndə onların davamçısı olmağı qərara almışıq. Yəni biz nağıl qəhrəmanlarının deyil, real qəhrəmanların qəhrəmanlığını yaşada-yaşada, o qəhrəmanlıqlarla yaşaya-yaşaya böyümüşük.

Nə gözəl düşünürsən, Azərbaycan əsgəri! Bir daha, həm də dönməzliklə əmin oluram ki, sənin mənəvi-psixoloji hazırlığın belə düşüncələr əsasında formalaşdığı üçün bu səviyyədə yüksəkdir. Sən sevdiyin, qəhrəmanlıqlarını ömrünə yazdığın qəhrəmanların mənəvi varisisən, onların istəyini sən başa çatdıracaqsan!..

Nağılların fəlsəfəsi qəhrəmanlıqdı, qəhrəmanlığa aludəliyin, meyilin, təşnəliyin təbliğidi, mahiyyəti etibarilə şər qüvvələrə qarşı mübarizədi. Azərbaycan əsgərinin düşüncələri uşaqlığından nağıllarımızın fəlsəfəsi əsasında mübarizəyə yönəldilib. Müharibə onları yaşından tez böyüdüb. Müharibə onların mübarizliyini döyüş əzmi səviyyəsinə, döyüş əzmini qələbə ruhu həddinə çatdırıb. Azərbaycan əsgəri ona görə güclüdü. Azərbaycan Ordusu belə əsgərlərin ordusudu.

Dünyada ikinci ən qədim insan məskəni Füzuli rayonu ərazisindəki Azıx mağarası olub. Yəni bəşərə bəşərilik, dünyəvilik işığı Azıx mağarasından düşüb. Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmriylə döyüşəcək, torpaqlarımızı işğaldan azad edəcək, qələbə qazanacaq, nağıl təfəkkürünün başlanğıcı olan bu mağaranı da azadlığa çıxardacaq...

Səngərdə əsgərlərə demişdim ki, mübarizlik xalqımızın yaşdaşıdı. Kaş o fikrin davamı kimi Mübarizliyi təkcə nağıllarla, nağılların fəlsəfəsiylə məhdudlaşdırmaq düzgün deyil. Mübarizlik milli-xəlqi ruhdan, milli mentalitetdən gəlir. Min illər əvvəl bu ruhu Cavanşirlər yaşadıb, sonralar Basatlar, Beyrəklər, Qaraca Çobanlar, Uzun Həsənlər, Xətailər, Cavad xanlar,... Bu ruh yaşarı ruhdu, yaşanıla-yaşanıla yaşadılan ruhdu. Azərbaycan Xalq Cümhuriyyəti yarandı, bu ruh yaşadıldı, Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi, bu ruhu Azərbaycan zabiti, Azərbaycan əsgəri böyük sədaqətlə yaşadır", - deyəydim. Onu da deyəydim ki, on illərdi müharibəyə görə, müharibənin gerçəkliklərinə görə Azərbaycanımızda nağıl dünyası uşaqları cazibəsində saxlaya bilmir, nağıllar həmin nağıllardı, qəhrəmanlar həmin qəhrəmanlardı, zaman o zaman deyil - dünyanın arşını əyilib. Dünyanın əyilmiş arşınını Azərbaycan əsgərinin Böyük Qələbəsi düzəldəcək...

"Ağ atlı oğlan" filmi müharibənin fəlsəfəsini də açır, gerçəkliklərini də göstərir. Filmdə Murad aydın düşüncəsiylə, müharibəyə, müharibə aparanlara, Vətənə fərdi münasibətiylə həm müharibə illərinin uşaqlarını, həm də rəmz formatında xalqı təmsil edir. Murad nağıllara meyilli yaşda olsa da, döyüşlərdədi - döyüşür, harada olduğunu ailəsi də bilmir. Döyüşür - inanır, inanır - döyüşür. Ağ atlı oğlanların gələcəyinə, Ali Baş Komandanın əmriylə döyüşəcəyinə, müharibənin qurtaracağına inanır, torpaqlarımızın işğaldan azad ediləcəyinə inanır. Ona da inanır ki, Ağ atlı oğlanlar nağıl qəhrəmanları yox, qətiyyətiylə, döyüş əzmiylə, qələbə ruhuyla, Vətənə, dövlətə, dövlətçiliyə məhəbbətiylə tarixlər yazmağa qadir azərbaycanlı qəhrəmanlar olacaq.

Muradlar - müharibə illərinin uşaqları 2016-cı ilin Aprel döyüşlərini xatırlayır, əsgərlərin döyüş əzmini, qələbə ruhunu, Lələtəpədə, Bayraqtəpədə, Günnütdə əzəmətlə dalğalanan bayraqlarımızı xatırlayır. Bu xatırlamaların hər biri nağıllardan gerçəkliyə düşən işıqdı. Bu işıq xatırlayanların da, bizim də ürəyimizi təlləndirir...

1993-cü ilin dekabr ayının 29-uydu. Murovdağın ətəyində - Zəligöldə blindajda bir səmimi söhbətin cazibəsindəydik. Sahib Aslanov tavar sazda "Qaraçı"dan "Ruhani"yə keçmişdi - xallar-güllər ruhumuzun nazını çəkmişdi. Sahib əsgərlərə xitabən demişdi:

- Nağıl qəhrəmanları sizin sevdiyiniz kimi sevilmir. Uşaqların qəhrəmanları siz olacaqsınız. O uşaqlar özlərindən kiçiklərə nağıl qəhrəmanlarından deyil, gerçək qəhrəmanlardan - sizlərdən danışacaqlar.

Onda mənə elə gəlmişdi ki, blindajın işığı artmaqdadı...

Hərbi xidmətə nağıl qəhrəmanlarından daha çox müharibə qəhrəmanlarını tanıyıb gələnlərin əhatəsində belə düşüncələr yaddaşımın "qırışığını açır". Yeniyetmələri gəncləşdirən, gəncləri əsgərləşdirən qəhrəmanlarımızı - Əlif Hacıyevi, Yusif Mirzəyevi, Vəzir Orucovu, Şirin Mirzəyevi, Etibar İsmayılovu, ... , Mübariz İbrahimovu xatırlayıram. Məni səngərdən bu xatırlamalar uğurladı. Sabahlarımızın qəhrəmanlarının əhatəsində dünənlərimizin qəhrəmanlarını xatırlamaq mənəvi borcödəmə kimi yaşanıldı...

...Nağılların fəlsəfəsi qəhrəmanlıqdı. Xalqın sabahlarını, qəhrəmanlıq məfkurəsi təmin edir; əsgərlərimiz işıqlı, nurlu sabahlarımıza xidmət edirlər.

Bayaq zabit İsaq Orucov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hərbi qulluqçuların vəzifə maaşlarının artırılması haqqında Sərəncamını xatırlatmışdı. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Yusif Nağıyev demişdi:

- Vətənə xidmətdə təmənna olmur. Ölkə başçısının bu qayğısı bütün hərbi qulluqçuların hərbi xidmətə münasibətini daha da artırıb. Bilirik ki, hərbi xidmətimizin başlıca qayəsi torpaqlarımızın işğaldan azad edilməsidir. Taleyimdən razıyam ki, qələbə ilə nəticələnəcək döyüşlərdə mən də iştirak edəcəm. Nağıl qəhrəmanlarının gerçək qardaşlarıyla bir sırada...

... "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır" deyən Azərbaycan əsgəri bilir ki, Muradların yolunu gözlədiyi Ağ atlı oğlan elə onun özüdü, səngərdaşıdı. Ali Baş Komandanın döyüş əmriylə döyüşəcək, "Sənin üçün hər birimiz Mübarizik, Ana Vətən!" deyib döyüşəcək, qələbə ruhuyla döyüşəcək, gerçək qəhrəman olmaq üçün döyüşəcək...

**Rəşid Faxralı**

# SOCAR-ın TENDERLƏRİ

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Neftqaztikinti" Tresti

**Tamponaj sementə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25131-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi üçün təklifinin qüvvədə qalmasına dair bank təminatı.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 20.08.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 27.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 236 (ƏDV-ilə) manat və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.
* Hesab nömrəsi:

Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX ID: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR

Beneficiary Bank: The International Bank of Azerbaijan Republic
Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX ID: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX ID: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin üzrə malların tədarük müddəti təchizat qrafikinə uyğun 20 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.
Müqavilə ödəniş müddəti:
Satınalan təşkilat müsabiqə üzrə satınalınan mallara görə satınalma müqaviləsi üzrə ödənişi hissə-hissə 30-60 təqvim günü ərzində yerinə yetirməyi nəzərdə tutur.
Bank təminatı:
İddiaçının 5800 AZN və ya ekvivalent məbləğdə sərbəst dönərli valyutada müsabiqənin təklifi üzrə bank zəmanəti tələb olunur.
1. Bank təminatının əsli ayrı zərfdə müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat təklifi rədd etmək hüququnu özündə saxlayır.
2. Təminat vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank təminatlarını qəbul etməmək hüququnu özündə saxlayır.
3. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (pul vəsaitinin köçürülməsi, depozitlər və debutor borcdan dondurma) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanın V paraqrafında göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.
4. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.
Qeyd: Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən maksimal olaraq 30% avans ödənişi yerinə yetirilməsi nəzərdə tutulur.
5. Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.
Əlaqələndirici şəxs:
Əmiraslanov Emil.
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin rəis müavini
Telefon nömrəsi: +994 12 521-07-67
Mob: +994 50 842-51-00
Elektron ünvan: Emil.Amiraslanov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 27.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləbiləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**

---

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Neftqaztikinti" Tresti

**Avtomatik yanğınsöndürmə sisteminin yaradılması üçün müxtəlif növ qapayıcı boru birləşmələri və materiallara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25130-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi üçün təklifinin qüvvədə qalmasına dair bank təminatı.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 20.08.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.
Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 27.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 236 (ƏDV-ilə) manat və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.
* Hesab nömrəsi:

Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX ID: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR

Beneficiary Bank: The International Bank of Azerbaijan Republic
Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX ID: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX ID: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.
Müqavilə ödəniş müddəti:
Satınalan təşkilat müsabiqə üzrə satınalınan mallara görə satınalma müqaviləsi üzrə ödənişi hissə-hissə 30-90 təqvim günü ərzində yerinə yetirməyi nəzərdə tutur.
Bank təminatı:
İddiaçının 5300 AZN və ya ekvivalent məbləğdə sərbəst dönərli valyutada müsabiqənin təklifi üzrə bank zəmanəti tələb olunur.
1. Bank təminatının əsli ayrı zərfdə müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat təklifi rədd etmək hüququnu özündə saxlayır.
2. Təminat vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank təminatlarını qəbul etməmək hüququnu özündə saxlayır.
3. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (pul vəsaitinin köçürülməsi, depozitlər və debutor borcdan dondurma) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanın V paraqrafında göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.
4. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.
Qeyd: Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən maksimal olaraq 30% avans ödənişi yerinə yetirilməsi nəzərdə tutulur.
5. Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.
Əlaqələndirici şəxs:
Əmiraslanov Emil.
Maddi-Texniki Təchizat və Marketinq şöbəsinin rəis müavini
Telefon nömrəsi: +994 12 521-07-67
Mob: +994 50 842-51-00
Elektron ünvan: Emil.Amiraslanov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 27.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləbiləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**

VAHİD AZƏRBAYCAN UĞRUNDA!
iki sahil Son səhifə
16
www.ikisahil.az / www.ikisahil.tv
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 133 (7388) / Cümə axşamı, 25 iyul 2019-cu il

## Yerə siqaret kötüyü atanlara xəbərdarlıq:
# 950 manat cərimə



Portuqaliyada yeni qanun qüvvəyə minib.

Milli.Az xəbər verir ki, qanuna əsasən, ictimai məkanlarda siqaret kötüklərini yerə atanlar 25-250 avro (təxminən 50-500 manat) cərimə ödəyəcək.

Qərar zərərli maddələrin ətraf mühitə mənfi təsirinin qarşısını almaq məqsədilə qəbul edilib. Burada sadəcə küçələr deyil, çimərlik, çay kənarı və parkların da siqaret kötüklərindən təmizlənməsi nəzərdə tutulur.

Yeni qanun ictimai xidmət sektorlarına da bəzi məsuliyyətlər gətirib. Belə ki, alış-veriş mərkəzləri və hotel tipli məkanlarda siqaret çəkilməsi üçün nəzərdə tutulan yerlərə külqabı qoyulmalı və onun təmizliyinə nəzarət olunmalıdır. Bu məsuliyyəti icra etməyənlər 240-500 avro (450-950 manat) cərimə ödəyəcək.

Aparılan araşdırmalara görə, Portuqaliyada 1 dəqiqədə küçəyə 7 min siqaret kötüyü atılır.

## HƏTTA QURBAĞALAR BELƏ ƏSNƏYİR

**Hətta bu xəbəri nəzərdən keçirərkən siz, yəqin ki, əsnəyəcəksiniz. Biz niyə və nə üçün əsnəyirik? Bu sualın cavabı çox insanlara maraqlıdır. Əsnəmə nəfəs hərəkətidir, adətən qeyri-iradi olub dərindən nəfəsalma və enerjili nəfəsvermədən ibarətdir. Əsnəmə təkcə insana xas deyil. Deyirlər ki, hətta qurbağalar belə əsnəyir. Əsnəmə bütün heyvanlarda mövcud olan instinktin təzahürüdür. İnsanların çoxu əsnəyən digər adama baxarkən özləri də əsnəyirlər.**



Əsnəmə keçicidir. 42-50% hallarda insanlar kollektiv şəkildə əsnəyirlər, amma 4 yaşından kiçik uşaqlar bu hərəkəti təkrar etmirlər. Şimpanzelər də insanlar kimi kollektiv şəkildə əsnəyə bilirlər.

### BƏS İNSAN NİYƏ ƏSNƏYİR?

Bu reflektor aktın köməyi ilə orqanizmdə oksigen və karbonun miqdarı tarazlaşır, yeni əgər insan uzun müddət oksigen çatışmayan boğanaq bir yerdə qalıbsa, o, tez-tez əsnəyəcək. Orqanizm bununla balansı bərpa etməyə çalışır.

Əsnəmə orqanizmin bütün reaksiyalarını fəaliyyətə gətirir. Məhz bu səbəbdən insan günün yorgunluğunu hiss edərək səhərdən əsnəyir. Oksigen axını qan dövranını yaxşılaşdırır, diqqəti gücləndirir, gümrahlıq bərpa edilir. Gün ərzində təkrarlanan daimi əsnəmə orqanizmin həddən artıq yorğun olduğundan xəbər verir.

Əsnəmə beynin qidalanmasını təmin edir. Uzun müddət fiziki və ya əqli fəaliyyətsizlikdən sonra nəfəs, əsəb hüceyrələrinin fəaliyyəti yavaşlayır, orqanizmdə, xüsusən də beyində oksigen çatışmazlığı başlayır, ona görə də əsnəmə baş verir. Həmçinin, yaddan çıxarmayaq ki, əsnəmə prosesində üz və boyun əzələləri gərilir, bu da baş beynin fəaliyyətinə müsbət təsir edir. Bu, özünəməxsus gimnastikadır. Ona görə də tez-tez baş verən əsnəmə halları uzun müddət davam edən fəaliyyətsizlikdən xəbər verir.

Əsnəmənin köməyi ilə orta qulaqda təzyiq tənzim olunur. Əsnəmə prosesində yevstaxiya borularına aparan kanal-girişlər açılıb-qapanır. Bu da qulaqların tutulmasının qarşısını alır.

Röya Rasimqızı,
*"İki sahil"*

## Həcc ziyarəti kvotası dolub



Bu il Azərbaycandan Həcc ziyarətinə getmək üçün müəyyən edilən 1400 nəfərlik kvota artıq dolub.

Milli.Az xəbər verir ki, bu barədə Trend-ə Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) məlumat verilib.

Qeyd olunub ki, adətən Həcc ziyarətinə gedənlərin 40 faizini qadınlar təşkil edir. Bu il də qadın zəvvarların təqribən 40 faiz təşkil edəcəyi bildirilir.

Xatırladaq ki, zəvvarların avqustun 1-dən 6-na qədər Həcc ziyarətinə yola düşmələri, avqustun 21-dən 25-ə qədər isə Azərbaycana dönmələri planlaşdırılır. Onlar 8 təyyarə reysi ilə yola salınacaqlar.

Bu il Həcc ziyarətinin qiyməti 4285 ABŞ dolları təşkil edir.

## "Yuventus" "Tottenhem"in müdafiəçisi ilə maraqlanır




"Tottenhem"dən ayrılacağı gözlənilən Denni Rouz karyerasını İtaliyada davam etdirə bilər.

Milli.Az goal.az-a istinadən xəbər verir ki, 29 yaşlı müdafiəçi ilə Juventus yaxından maraqlanır. Turin təmsilçisi baş məşqçi Mauritsio Sarrinin xüsusilə komandada görmək istədiyi Rouz üçün yaxın zamanda təklif göndərəcək. Rouz "Tottenhem"in yeni mövsüm öncəsi təlim-məşq toplanışına aparılmayıb.

Qeyd edək ki, Rouzla PSJ və "Şalke" də yaxından maraqlanır.

## 23 qat olimpiya çempionunun rekordu qırıldı



Macarıstanlı üzgüçü Kriştof Milak 23 qat olimpiya çempionu Maykl Felpsə məxsus rekordu qırıb.

Milli.Az goal.az-a istinadən xəbər verir ki, 19 yaşlı idmançı buna Cənubi Koreyanın Kvancu şəhərində keçirilən su idman növləri üzrə dünya çempionatında nail olub.

Milak batterflay üsulla üzmə yarışında 1 dəqiqə 50.73 saniyəlik nəticə göstərməklə mundialda qızıl medal qazanıb.

Qeyd edək ki, bundan öncəki rekord ABŞ idmançısı Maykl Felpsə aid idi. Həmin rekord 1 dəqiqə 51,51 saniyə olub.

## Ermənistan ordusunda intihar və cinayət halları artıb



Son günlər Ermənistan ordusunda intihar və cinayət halları artıb. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, bu ölkənin İstintaq Komitəsi Volodya Qaloyan adlı hərbi qulluqçunun avtomat silahla öz əsgər yoldaşını öldürmək istədiyini bildirib. Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsində baş vermiş bu insidentin təhqiqatı zamanı aydın olub ki, atəş açdıqdan sonra qaçan həmin hərbi qulluqçu digər əsgər tərəfindən güllələnib.

Həmin gün digər insident isə paytaxt Yerevanda baş verib. İstintaq Komitəsinin mətbuat katibi Naira Aryutunyan jurnalistlərə bildirib ki, Rusiyanın Ermənistanda dislokasiya olunmuş sərhəd qoşunlarında kontrakt əsasında xidmət edən 30 yaşlı erməni hərbi qulluqçu yaşadığı bağ evində özünü asaraq intihar edib. O əlavə edib ki, hərbçinin cəsədi üzərində məhkəmə-tibbi ekspertiza aparılır. Hadisənin səbəbinin həmin şəxsin həmkarlarına külli miqdarda borcu olmasıdır.

## Dişlərə ziyan vuran çaylar



Bern universitetini təmsil edən İsveçrə alimləri, dişlərin mina qatına ziyan vuran çaylar haqda danışıb. Siyahıda ən əvvəl orqanizm üçün müəyyən cəhətdən faydalı sayılan karkade (Hibiskus yaxud Məkkə çayı - red.) çayı qeyd edilmşdir.

Milli.Az deyerler.org-a istinadən bildirir ki, ekspertlərin fikrinə görə məhz limon turşusu, dişlərin emalının hətta tam olaraq aradan getməsinə qədər ziyan vura bilər. Oxşar tərzdə az kaloriyalı, limon və askorbin turşusu əlavə edilmiş qazlı sular da dişlərə mənfi təsir göstərir.

Bəzi enerji içkiləri də həmçinin dişlərin mina qatına ziyanlı ola bilər. Belə ziyanlardan qorunmaq üçün alimər içkilərə kalsium əlavə etməyi tövsiyə edir.

### ALLAH RƏHMƏT ELƏSİN!

Vüqar Rəhimzadə Ədliyyə nazirinin müavini Vilayət Zahirova, anası

**Fəridə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl HACIYEV
Baş redaktorun müavini: Nail Arifoğlu
Baş redaktorun müavini: Rəşad Bağırov

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 25.07.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8145
İndeks: 0151, Sifariş: 2433

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.